www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 may 2017-ci il Cümə axşamı № 94 (6708) Qiyməti 60 qəpik

**Xəbər**

## Ağcabədidə müəllim qonşusunun maşınlarını yandırdı

yazısı səh.2-də

**Gündəm**

### Ərdoğanla Putinin görüşündə mühüm razılaşmalar



"Türkiyə prezidenti: "Danışıqların nəticələrini bir neçə gündən sonra görəcəksiniz"; "İki ölkə arasında münasibətlər xüsusi status əldə edir və tam bərpa olunur"

yazısı səh.6-da

### Kanal 13-ün direktorunun həbsi narahatlıqla qarşılanıb-reaksiyalar

yazısı səh.3-də

### TAP kəmərinin İtaliyada düyün düşən hissəsi...

yazısı səh.12-də

### İŞİD təhlükəsi sovuşurmu...

yazısı səh.7-də

### Avropa Birliyindən Türkiyəyə dair skandal açıqlama

yazısı səh.8-də

### Səfirin ingilis dilini bilməsi şərtdirmi...

yazısı səh.7-də

### Almaniya kanslerinin Moskva səfərinin ortaya çıxardığı suallar və reallıqlar

yazısı səh.9-da

### "Müavini Əli Abbasovun yerinə keçmək üçün 3 dəfə təxribat törətdi" - Vidadi Zeynalovdan sensasion açıqlama

yazısı səh.10-da

### Duqinin Qarabağ açıqlaması - Kremlin şərti...

yazısı səh.9-da

### Bakıda məşhur şadlıq sarayından toy zamanı içi pulla dolu seyf oğurlandı

yazısı səh.14-də

### Sabahdan sarı xətt qadağası başlayır - 40 manat cərimə...

yazısı səh.13-də

## Ölkədə ciddi dəyişikliklər prosesi başlayır...

# İQTİDAR "BÜDCƏNİ YEYƏN" BÜROKRATİK APARATLA VİDALAŞIR-TƏFSİLAT

Baş nazir müavini Əli Əhmədov ciddi dəyişikliklərin anonsunu verdi; ekspertlərin qənaətinə görə, iqtidarın qismən "rahat nəfəs" alması ilə çoxdan gözlənilən struktur islahatları, eləcə də hakim komandada yenilənmələr başlayır...




yazısı səh.5-də

## Türkiyə-Azərbaycan birgə təlimləri - ordu önə keçir

NATO üzvünün əsgərləri Qarabağda, bizimlə...; İki qardaş ölkənin birgə təlimlərinin ardınca Azərbaycan, Türkiyə və Gürcüstan ortaq təlimləri başlayacaq; rusiyalı hərbi ekspert İrəvanı xəbərdar etdi: "Belə təlimlər ən əvvəl Ermənistana güc nümayişidir..."

yazısı səh.8-də



İlqar Əliyev

### MTN zabitinin intiharının gizlinləri - Eldar Mahmudova qarşı danışıb və özünü asıb!

yazısı səh.4-də



Mürvət Həsənli

### Türkiyəli iş adamı ilə yumurta davası olan iş adamı saxlanıldı

yazısı səh.4-də



### Arif Rəhimzadədən verilişi qapadılan Turan İbrahimova sərt sözlər

yazısı səh.5-də

# 4 may 2017

YENİ MÜSAVAT
N 94 (6708) 4 may 2017



# “Azərbaycan islamofobiyaya qarşı mübarizədə fəal iştirak edir” - prezident İlham Əliyev

**Azərbaycan prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymini qəbul edib. APA-nın məlumatına görə, İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin xarici siyasətimizin mühüm bir hissəsini təşkil etdiyini və Azərbaycanın bu təşkilatın çox fəal üzvü olduğunu vurğulayan prezident İlham Əliyev son illərdə ölkəmizdə bu qurumun fəaliyyəti ilə bağlı nazirlər səviyyəsində bir sıra mühüm tədbirlərin keçirildiyini qeyd edib.**

Dövlət başçısı bildirib ki, Azərbaycan islamofobiyaya qarşı mübarizədə fəal iştirak edir: “Müsəlman ölkələri arasında həmrəylik və əməkdaşlıq siyasətimizin gündəliyində duran ən mühüm məsələlərdəndir və bizim bu istiqamətdə təşəbbüslərimiz nəcib bir məqsədə - müsəlman ölkələrinin siyasi, iqtisadi və digər sahələrdə bir-birinə daha da yaxınlaşması işinə xidmət edir”.

Azərbaycanın beynəlxalq təşkilatlarda, xüsusilə Birləşmiş Millətlər Təşkilatında qardaş müsəlman ölkələri ilə həmişə həmrəy olduğunu vurğulayan prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının da öz növbəsində Azərbaycana güclü dəstək verdiyini məmnunluqla qeyd edib.

**Prezident İlham Əliyev vurğulayıb ki, İslam Əməkdaşlıq Təşkilatının sonuncu sammitində Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı kontakt qrupunun yaradılması qərarının qəbul edilməsi və təşkilatın münaqişə ilə bağlı ədalətli mövqeyi xalqımız tərəfindən yüksək qiymətləndirilir:** “Bu mövqe Azərbaycanla İslam Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin möhkəm əsaslarının qurulmasında mühüm rol oynayır”.

Dövlət başçısı ölkəmizin bu təşkilatla həm ikitərəfli, həm də beynəlxalq səviyyədə əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əmin olduğunu bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, bu ilin Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olunması və yaxın günlərdə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi müsəlman ölkələri və xalqları arasında birliyi daha da gücləndirəcək.

**İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin isə bildirib ki, Azərbaycan siyasi, iqtisadi, mədəni, sosial, gənclər arasında əməkdaşlıq sahələrində İslam Əməkdaşlıq Təşkilatının və İslam ailəsinin çox mühüm üzvüdür:** “Bu, çox önəmlidir. Azərbaycandakı inkişaf prosesləri və tolerantlıq İslam dünyasında bir nümunədir. Bakıda gördüyüm abadlıq işləri, yaşıllıq və təmizlik məni heyran etdi. Azərbaycan çox gözəl ölkədir”.

Qonaq Azərbaycanda keçiriləcək İslam Həmrəyliyi Oyunlarına toxunaraq bunu çox önəmli beynəlxalq idman tədbiri kimi dəyərləndirib və həmin tədbirin bütün müsəlman ölkələrinin bu mötəbər oyunlarda iştirakı və Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaları üçün yaxşı imkan yaratdığını vurğulayıb.

Görüşdə Azərbaycanın turizm potensialı müzakirə edilib, ölkəmizdə turizmin inkişafı üçün çox böyük imkanların və yaxşı şəraitin mövcud olduğu qeyd edilib.


## “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**“Yeni Müsavat” - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Milli Qəhrəmanın təqaüdünün ailə üzvləri arasında bölünməsi prinsipi dəyişdirildi

**Azərbaycanın Milli Qəhrəmanı adı ölümündən sonra verildikdə və ya həmin ad verilmiş şəxs sonradan vəfat etdikdə, Azərbaycan prezidentinin təqaüdü Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxsin dul arvadına (ərinə), valideynlərinə, 18 yaşına çatmamış, yaxud 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil uşaqlarına, uşaq evlərində tərbiyə olunan qardaş və bacılarına, bu kateqoriyalardan ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alanlara isə həmin təhsil müəssisələrini və elmi təşkilatın magistratura səviyyəsini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək, bununla bağlı birinci növbədən olan digər qohumları yoxdursa, baba və nənələrinə (bütün bu hallarda təqaüd məbləği onların sayına bərabər məbləğdə bölünməklə) ödəniləcək.**

APA-nın məlumatına görə, bu, Azərbaycan prezidenti İlham Əliyevin imzaladığı “Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2005-ci il 14 iyul tarixli 258 nömrəli fərmanında dəyişikliklər edilməsi barədə fərmanında əksini tapıb.



İndiyə qədər Azərbaycanın Milli Qəhrəmanı adı ölümündən sonra verildikdə və ya həmin ad verilmiş şəxs sonradan vəfat etdikdə Azərbaycan Respublikası Prezidentinin təqaüdü Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxsin dul arvadına və 18 yaşına çatmamış, yaxud 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı uşaqlarına, təqaüdü almaq hüququ olan Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxsin dul arvadı və uşaqları olmadıqda, valideynlərinə ödənilib.

Qeyd edək ki, Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş hər bir şəxs üçün ayda 1300 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib.

# Polis İslamiada ilə əlaqədar gücləndirilmiş iş rejiminə keçir

**Respublika daxili işlər orqanlarının əməkdaşları may ayının 5-dən 25-dək gücləndirilmiş iş rejimində çalışacaq.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumatına görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubov bununla bağlı müvafiq əmr imzalayıb.

Əmrə əsasən, respublikamızda keçiriləcək IV İslam Həmrəyliyi Oyunları ərəfəsində və dövründə yerli və əcnəbi qonaqların təhlükəsizliyinin təmini, ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının qorunmasının, xidməti vəzifələrin yüksək səviyyədə və daha mütəşəkkil icrası məqsədilə həmin müddətdə DİN-in bilavasitə tabe qurumlarının, ərazi polis orqanlarının və nizami polis hissələrinin şəxsi heyəti gücləndirilmiş iş rejimində çalışacaq.

Əmrdə həmçinin bildirilir ki, İslamiada ərəfəsində və keçirildiyi müddətdə ictimai yerlərdə və küçələrdə post-patrul xidməti naryadlarının sayı artırılacaq, avtomobil yollarında hərəkətin təhlükəsizliyi üçün bütün qüvvə və imkanlar səfərbər ediləcək, mühüm əhəmiyyətli obyektlərin, o cümlədən xarici ölkələrin diplomatik nümayəndəliklərinin mühafizəsi ciddi nəzarətdə saxlanılacaq, həmçinin bütün strateji əhəmiyyətli obyektlərin, o cümlədən su, hava, dəmir yolu nəqliyyatının, avtovağzalların, limanların, metropolitenin, xarici ölkələrin diplomatik nümayəndəliklərinin, qonaqların və idmançıların yaşayacaqları mehmanxanaların mühafizəsi daha da gücləndiriləcək.

# Ağcabədidə müəllim qonşusunun maşınlarını yandırdı

**Ağcabədi rayonunda qonşusunun avtomobillərini yandıran müəllim tutulub.**

“Report”un Qarabağ bürosunun məlumatına görə, hadisə rayonun Taxtakörpü qəsəbəsinin Qarakeş obasında qeydə alınıb.

Belə ki, Laçın rayonundan məcburi köçkün Xanalı Muradalı oğlu Verdiyevin bir müddət bundan öncə müxtəlif vaxtlarda iki avtomobili yandırılıb.

X.Verdiyev Ağcabədi Rayon Polis Şöbəsinə məlumat verərək bildirib ki, naməlum şəxs və ya şəxslər tərəfindən ona məxsus “VAZ-21015" və ”Mercedes-190" markalı iki avtomobili yandırılıb.

Ağcabədi RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri zamanı avtomobilləri yandırmaqda şübhəli bilinən Qarakeş obasının orta məktəbinin tarix müəllimi İkram Sərdar oğlu Şükürov tutulub.

Şübhəli şəxs qismində saxlanılan İ.Şükürov ilkin dindirmə zamanı törətdiyi əməli etiraf edib.

O, istintaqa verdiyi ifadəsində bildirib ki, qonşusunun iki avtomobili olduğu halda onun avtomobili yoxdur və hadisəni gecə vaxtı qonşusunun həyətinə girərək bu səbəbdən törədib.

Faktla bağlı Ağcabədi RPŞ-də cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.



# Bakı Slavyan Universitetinin binasının fasadındakı mozaika bərpa olunur

**Bakı Slavyan Universitetinin binasının fasadında Azərbaycanın görkəmli ədiblərinin portretlərini Şərq motivləri fonunda əks etdirən mozaik panno bərpa olunur.**

Təhsil Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bərpa işləri ölkə prezidentinin tapşırığına əsasən aparılır.

Qeyd olunub ki, fasadın bərpa işlərinin eskiz-layihəsi Azərbaycan Rəssamlar İttifaqı tərəfindən Memarlar İttifaqı, Mədəniyyət və Turizm Nazirliyi, eləcə də Dövlət Rəssamlıq Akademiyası mütəxəssislərinin təklifləri nəzərə alınmaqla hazırlanıb. Bununla bağlı ötən ilin oktyabrında Təhsil Nazirliyinin təşəbbüsü ilə işçi komissiya yaradılıb. Komissiya əməkdar rəssam Elmas Hüseynov tərəfindən vaxtilə yaradılıb və hazırda saxlanılan eskizlər, habelə binanın təmirdən öncə çəkilmiş fotoşəkilləri əsasında sözügedən mozaik pannonun bərpasını məqsədəuyğun hesab edib.

Bu tədris ilinin sonunadək Bakı Slavyan Universitetinin binasının fasadında mozaik panno tam bərpa olunaraq öz əvvəlki görkəmini alacaq.

# Rusiyadan alınan hərbi texnika Azərbaycan ordusunun silahlanmasına daxil edilib

**Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hərbi-texniki əməkdaşlıq müqaviləsinə əsasən ölkəmizə gətirilən müxtəlif təyinatlı müasir hərbi texnika Silahlı Qüvvələrimizin bölmələrinin silahlanmasına daxil edilib.**

Müdafiə Nazirliyindən APA-ya verilən məlumata görə, silah və hərbi texnikanın yoxlanılması məqsədilə keçirilən atışlar uğurla başa çatıb.



# İranda kömür mədənində partlayış - 2 nəfər ölüb, 26 nəfər yaralanıb

**İranda kömür mədənində baş vermiş partlayış nəticəsində 26 nəfər yaralanıb, iki nəfərin cəsədi dağıntılar altından çıxarılıb.**

APA-nın Tehran bürosunun məlumatına görə, xilasedicilər yardımçı tunellər qazaraq mədəndə qalan fəhlələri xilas etməyə çalışırlar.

Bildirilir ki, partlayışa səbəb qaz sızması olub.

Təcili Tibbi Yardım təşkilatı bəyan edib ki, dərinliyi 1800 metr olan mədənin cənub hissəsində 50 nəfər, şimal hissəsində isə 40 nəfər qalıb.

YENİ MÜSAVAT
N 94 (6708) 4 may 2017

**Məlum olduğu kimi Azərbaycanın insan haqları üzrə müvəkkili - ombudsman Elmira Süleymanovanın səlahiyyət müddəti bu il martın 5-də başa çatıb. Lakin bu günə qədər hələ ki yeni ombudsman seçilməyib. Bunun üçün də iki aydır Elmira Süleymanova ombudsman vəzifəsini müvəqqəti icra edir. Azərbaycan qanunvericiliyinə görə, ombudsmanın namizədliyi prezident tərəfindən parlamentə təqdim olunur və millət vəkilləri tərəfindən təsdiqlənir.**

# Tanınmışlardan kimlər ombudsman olmaq istəyir...



**İlhamiyyə Rza:**
“Mahiyyət etibarı ilə bu iş bizə yad deyil”



**Mehriban Zeynalova:**
“Düşünmürəm ki, ədalətli olmaq məsələsində çatışmazlığım var”



**İradə Tuncay:**
“İstəmirəm, çünki iclasları sevmirəm”

**Maraqlıdır, bəs tanınmış ictimai fəal qadınlardan kimlər ombudsman olmaq istərdi?**

**Telejurnalist İlhamiyyə Rza sorğumuza bu cür cavab verdi:**

“Niyə bacarmaram? Nəyi bacarmadıq ki. Bu da əslində ictimai vəkillikdir. Biz jurnalistlər, xüsusən də ictimai fəal olan jurnalistlər, az-çox ictimai rəyə təsir gücündə olan insanlar müəyyən qədər vəkilliklə məşğuldurlar. Yəni mahiyyət etibarı ilə bu iş bizə yad deyil. Bu bizim gördüyümüz işlə eynidir, sadəcə, öz çapımızda edirik. Əslində bu işə səlahiyyətimiz çatmır, amma sadəcə, cəmiyyətdə bir çəkimiz varsa, hansısa məsələni həll edə, bir işi yaxşılığa doğru edə biliriksə nə xoş bizə. Ombudsman mənim düşüncəmdə insan haqları ilə bağlı, uşaq hüquqları ilə bağlı ayrı ombudsman olmalıdır. Bizdə bütün bu işlərin hamısının öhdəliyi Elmira Süleymanovanın üzərində olub. Lakin bütövlükdə götürsək, mən Elmira Süleymanovanın fəaliyyətini görməmişəm”.

**“Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova da ombudsman olmaq istədiyini bildirdi:**

“İlk öncə Elmira xanımın fəaliyyətindən söz açmaq istəyirəm. Onun fəaliyyəti hər zaman məndə xoş təəssürat yaradıb. Çünki təşkilatımızla bağlı hansı məsələ üçün müraciət etmişiksə, bizə reaksiya, dəstək verib. Ümumiyyətlə, yanaşmalar hər zaman fərdi olur. Məsələn, ayrı-ayrı adamların müraciətində görürük ki, razı qalmayanlar da var. Lakin bir daha qeyd edirəm, bizim təşkilatın müraciətləri heç zaman cavabsız qalmayıb. Elmira xanım bizim sığınacağa da gəlib, vəziyyətlə bağlı maraqlanıb, araşdırıb. Tədbirlərdə də görəndə hər zaman sığınacaqla bağlı maraqlanıb. O ki qaldı mənim ombudsman olmaq istəməyimə, çox istərdim ki, olum. Amma düşünürəm ki, bu işdə kifayət qədər mükəmməl bir insan olmalıdır. O mənada ki, həmin şəxsin dil baxımından problemi olmamalıdır. Həmçinin ölkə təmsilçiliyi, insan haqları, ədalətli və prinsipial olmaq məsələləri var. Düşünmürəm ki, ədalətli olmaq məsələsində çatışmazlığım var. Amma o vəzifəyə seçilən adam, qeyd etdiyim kimi, bir çox məsələlərdə kifayət qədər mükəmməl olmalıdır”.

**Əməkdar jurnalist İradə Tuncay ombudsman arzusunda olmaq istəmədiyini bildirdi. Səbəbini isə qısaca olaraq belə qeyd etdi:**

“İclasları sevmirəm”.

❑ **Xalidə GƏRAY**

# Elə gözəl ombudsman olaram ki...



**Aysel Əlizadə**

**2010-cu il martın 5-də ikinci dəfə ombudsman seçilən Elmira Süleymanovanın səlahiyyət müddəti 2017-ci il martın 5-də bitib.**

Qanuna görə bir şəxs iki dəfədən artıq ombudsman seçilə bilməz.

Bizim vahid hüquq və azadlıqlar müdafiəçimiz iki seçkini başa vurub. Ortada sual var: növbəti azadlıq carçımız kim olacaq?

Biz istedadlı xalqıq. Ölkədə çox ciddi kadrlar var. Məmləkətə böyük faydaları dəyə bilər.

Təvazökarlıq etməyəcəm, özümü ombudsman postuna layiqli namizəd kimi görürəm. İllərdi lazımsız təvazökarlıq, qürur sərgiləyə-sərgiləyə biz qadınlar ölkənin taleyüklü məsələlərindən praktik olaraq kənarda qalmışıq. “Ayıbdı, nə deyərlər” düşüncəsi qadınların rolunu cəmiyyət həyatında minimuma endirib.

Cavan, enerjili, savadlı, istedadlı xanımlar kənarda qalıb, ürkək-ürkək mövqe bildiriblər.

Potensialımızın heç yarısını məmləkətimiz üçün xərcləyə bilmirik. Beləliklə, bütün yollar qapanır, işıq ucları tıxanır.

Bəli, ombudsman ola bilərəm. Bu aparata ədalətli, güclü, korrekt, ağıllı, cavan qadınlardan biri layiqdi. Sadəlövh deyiləm, bilirəm, bizləri o posta yaxın qoymazlar. Bizi yerimizdə qocaldırlar. Halbuki ölkə üçün nələr edə bilərik. Elə bil xüsusi bir dəstə bu vətənə xidmət etmək istəyən hər kəsi radikallaşdırmaqla, qəzəbləndirmək və küsdürməklə məşğuldu. Nədən? Bu ölkəyə vətənini canından çox sevən, ona ömrünü verməyə hazır olan, doğruluq hissi olan, kompromis yaratmağı bacaran, yarınmaqda, qorumaqda ifrata varmayan, qızıl ortanı parlaq zəkası ilə seçə bilən kadrlar lazımdı. Cəmiyyətlə dövlət arasında körpü ola biləcək adamlar, körpüləri yandıranlar yox.

Borcum iddia ortaya qoymaqdı. Vicdanım rahat olar. Ən azı özümə mən əl uzatdım, gücümü, bacarığımı sərf etməyə hazır olduğumu açıq şəkildə söylədim deyərəm. Bu da həyat mübarizəsinin bir hissəsidi. İddiasız insan təslimçidi, ondan nəsə bir fayda verəcəyini də gözləmək boşunadı.

Bu posta layiq olan kadr çoxdu. Elə yaxından tanıdığım İlhamiyyə Rza, İradə Tuncay, Mehriban Zeynalova, Tamilla Qulami...

Mənə görə, ölkəni ifadə edən simalarda dəyişikliyin olması vacibdi. Qoy bizi sağlam sifətlər təmsil etsin. Ombudsmanın hüquq təhsilli olması da vacib deyil. Ona qalsa, əksər Qərb ölkələrində müdafiə naziri mülkü şəxs olur.

Əsas ədalət ölçüsü deyilmi? Həlledici anda qərar verə bilmək bacarığı deyilmi? “Hər şey aladı” kimi illik hesabat verib dövləti gülməli vəziyyətə qoymaq əvəzinə, nəyi necə yazmağı bilmək qətiyyətinin olmasında deyilmi peşəkarlıq? Ona görə də düşünürəm ki, xalqın ictimai vəkilliyini həyata keçirən hər bir qadın yaxşı ombudsman ola bilər.

Önəmlisi, bunu görmək və onların enerjisini ölkənin xeyrinə yönləndirməkdi.

# Kanal 13-ün direktorunun həbsi narahatlıqla qarşılanıb - reaksiyalar

## Zahid Oruc: “Kanal 13 internet televiziyası hər zaman özünün obyektiv mövqeyi ilə seçilib”

## İqbal Ağazadə: “Əziz Orucovun həbsdən azad olunması ilə bağlı qərar verilməlidir”

**Mayın 2-də Kanal-13 internet televiziyasının rəhbəri Əziz Orucova Nəsimi Rayon Məhkəməsinin qərarı ilə 30 sutka inzibati həbs cəzası verilib. O, İnzibati Xətalar Məcəlləsinin 535.1-ci maddəsi ilə polisin qanuni tələbinə tabe olmamaqda günahlandırılıb.**

**Vəkil Elçin Sadıqov** bildirib ki, mayın 2-də səhər saatlarında Əziz Orucov və onun həyat yoldaşı, televiziyanın redaktoru Lamiyə Orucova mülki şəxslər tərəfindən Nəsimi Rayon Polis İdarəsinə aparılıb. Vəkilin sözlərinə görə, polis onu xarici görünüşünün axtarışda olan bir şəxsin xarici görünüşü ilə uyğun gəldiyinə görə saxladığını bildirib: “Axtarışda olan şəxsin şəkli nümayiş etdirildi və Əziz Orucov həmin şəxsə oxşamır. Bu, sadəcə, quramadır və məqsəd Əziz Orucovu saxlamaq olub”.

**E. Sadıqovun sözlərinə görə, Əziz Orucov özünü təqsirli bilmir və Nəsimi Rayon Məhkəməsinin qərarından apelyasiya şikayəti verəcək:** “Burada məqsəd kiminsə axtarılması deyil, Əziz Orucovun tutulması olub”.

**Əziz Orucovun həyat yoldaşı Lamiyə Orucova da mətbuata açıqlamasında bildirib ki, mayın 2-də səhər saat 11 radələrində polis onların yolunu kəsib:** “7-8 nəfər yolumuzu kəsib avtomobilin qapısını açmaq üçün təzyiq etdi. Biz isə qapını bağladıq. Sonra Nəsimi Rayon Polis İdarəsindən Orxan Axundzadə adlı bir nəfər özünü təqdim etdi. Əziz qapıları açdı. Onu öz avtomobillərinə əyləşdirdilər. Mənim getməyimə də icazə vermədilər. Bizi yarım saat polis bölməsində saxladıqdan sonra məni buraxdılar. Daha sonra Əziz Orucovu məhkəməyə gətirdilər, 30 sutka həbs verdilər”.

Lamiyə Orucova Əziz Orucovun həbsi üçün heç bir əsas



Əziz Orucov

olmadığını bildirib. Həyat yoldaşına qarşı törədilən bu əməlin jurnalist fəaliyyətinə görə olması ehtimalını səsləndirib.

**Deputat Zahid Oruc “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu məsələ ilə bağlı ətraflı araşdırma aparılmasına ehtiyac olduğunu düşünür. Çünki Kanal 13 internet televiziyası hər zaman özünün obyektiv mövqeyi ilə seçilib:** “Tərəflərə normal yanaşmanı sərgiləməyə çalışırdı. Parlament üzvlərinə də tribuna verməyə çalışırdı. Sözügedən şəxsə mən də müsahibə vermişəm. Müxtəlif məsələlərə münasibətdə, xüsusilə idarəetmə sisteminin təkmilləşdirilməsi, aparılan islahatlarla bağlı biz də orada fikirlərimizi bölüşmüşdük. Onları da hər zaman normal işıqlandırmağa çalışırdılar. Bir daha bildirirəm ki, onlar Azərbaycan dövlətçiliyinə və cənab prezident İlham Əliyevin liderliyi altında aparılan proseslərə normal yanaşdıqlarını göstərməyə çalışırlar. Bu cəhətdən məsələnin siyasi müstəvidə çək-çevir edilməsinin, hakimiyyət əleyhinə çevrilməsinin qəti əleyhinəyəm. Mən bilirəm ki, hazırda hansı ideolojilər və hansı xətlər səbəbindən onun da kameralarını hakimiyyət əleyhinə tuşlamaq istəyənlər olacaq”.

**Zahid Oruc məsələnin hüquqi çərçivədə öz həllini tapacağına ümid etdiyini bildirdi:** “Mən məsələni tam araşdırmamışam. Ancaq mənə bəlli olan məlumatlar bundan ibarətdir ki, hansısa hüquqi prosedurların aydınlaşdırılması istənilib. Yalnız bundan sonra müəyyən qərar qəbul edilə bilər. Ümumən hesab edirəm ki, Azərbaycan dövlətinə, onun varlığına, siyasi mövcudluğuna, fəaliyyətinə münasibətdə düşmən mövqedən çıxış edən dairələr var. Onların bir qismi media və informasiya kanalları ətrafında təmərküzləşiblər. Təəssüf ki, onların bir qismi ölkə xaricindən idarə olunmaqdadırlar. Adətən jurnalist vəsiqəsi də həmin qüvvələr üçün özünümüdafiə vasitəsi hesab olunur.

Ancaq Kanal 13 və onun təmsilçisi ilə bağlı belə olduğunu düşünmürəm. Çünki bizimlə apardıqları söhbətlərdə və müsahibələrdə onlar Azərbaycan dövlətinə və ötən illər ərzində keçilən yola normal münasibət göstəriblər. Əmin olmaq istəyirəm ki, məsələ hüquqi çərçivədə çözüləcək"

**Ümid Partiyasının sədri İqbal Ağazadə də “Yeni Müsavat”a açıqlamasında Əziz Orucovun azad edilməsinin vacibliyindən danışdı:** “Mən bu xəbəri təəssüf hissi ilə qarşıladım. Əzizi tanıdığım üçün bilirəm ki, o, xuliqanlıq maddəsi ilə ittiham olunası biri deyil. Mən təəssüf etdim ki, bu dəfə də ənənəvi üsulla yanaşdılar. Səbəblər təxminən mənə bəllidir. Hesab edirəm ki, medianı susdurmaq, medianın tənqidi məsələlərə münasibətdə bu dərəcədə kəskin mövqe nümayiş etdirməməsi üçün atılan addımdır. Onsuz da bu, mətbuat və söz azadlığı indeksində göstəriciləri olduqca aşağı olan Azərbaycana müsbət heç nə vəd eləmir. Hakimiyyət bu məsələ barədə ciddi düşünməlidir. Çünki dünyada bütün sferalar üzrə zəif görünür. İqtisadi azadlıqlar, mətbuat və söz azadlıqları, insan haqları indeksləri üzrə Azərbaycan kifayət qədər geriləyib. Bu məsələləri nəzərə alaraq, Əziz Orucovun həbsi ilə bağlı məhkəmənin yuxarı instansiyası qəti mövqe ortaya qoymalıdır. Onun həbsdən azad olunması ilə bağlı qərar verilməlidir. Mən belə düşünürəm. Çünki bu, təkcə Əziz Orucovun həbsi məsələsi deyil. Dünya səviyyəsində Əziz Orucov adlı mətbuat nümayəndəsi tanınmır, ancaq dünya Azərbaycanda söz və mətbuat azadlıqlarının pozulduğunu bilir və buna da o aspektdən yanaşır. Hakimiyyət bunu düşünərək Əziz Orucovu dərhal həbsdən azad etməlidir”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 94 (6708) 4 may 2017

**MTN-in ləğvindən sonra baş verənlər arasında heç şübhəsiz ki, ən diqqət çəkən hadisə polkovnik İlqar Əliyevin intiharı oldu. MTN polkovnikinin həbs edildikdən bir müddət sonra saxlanıldığı həbsxanada intihar etməsi "MTN işi" ətrafında bir çox qaranlıq məqamların olması ilə bağlı şübhələri ortaya çıxardı. Hətta həbsdə olan general Akif Çovdarov vəkili vasitəsilə mətbuata İlqar Əliyevin öldürülməsi ilə bağlı məlumatlar da çatdırmışdı.**

# MTN polkovnikinin intiharının gizlinləri açılır

## İlqar Əliyev istintaqa Eldar Mahmudova qarşı ifadə verib və... özünü asıb

MTN polkovnikinin adı indi də ləğv edilmiş nazirliyin vəzifəli şəxslərinin cinayət əməllərində çəkilməkdə davam edir. Hazırda cinayət işi üzrə məhkəmə prosesi davam edən MTN-in Antiterror Mərkəzinin rəisi, general Elçin Quliyev və 3 MTN zabitinin işində də bir çox epizodlarda İlqar Əliyevin adı hallanır.

İlqar Əliyev Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışırdı. Mərhum polkovnikin MTN-in vəzifəli şəxsləri, onların əməlləri barədə bildikləri sirr olaraq qaldı. Ancaq məlumdur ki, İlqar Əliyev də digər həbs edilən MTN zabitləri kimi saxlanıldıqları ilk gündən istintaqa ifadə veriblər.

Musavat.com polkovnikin intihar etməmişdən əvvəl Bakı İstintaq Təcridxanasında verdiyi ifadəsini əldə edib. Bu işdə maraqlı olan məqam isə polkovnikin bu ifadəni verdikdən cəmi 5 gün sonra intihar etməsidir.

2015-ci il dekabrın 15-də ifadə verən İlqar Əliyev dekabrın 20-də özünü saxlanıldığı kamerada asıb. Bəs İlqar Əliyev həmin ifadəsində nə demişdi?

Polkovnik təqsirləndirilən şəxs qismində ifadə verərkən sabiq nazir Eldar Mahmudovun əməllərini ifşa edib.

O, zərərçəkmiş Maqsud Mahmudovun epizodu üzrə ifadə verərkən deyib ki, sabiq nazir Eldar Mahmudov Tərlan adlı şəxs barəsində təqsirləndirici material toplanması barədə baş idarə rəisi Elçin Quliyevə şifahi göstəriş verib. Elçin Quliyev də bu məsələ ilə məşğul olmağı ona tapşırıb.

**İlqar Əliyev sabiq nazirin əmrini necə yerinə yetirmələrini belə izah edib:** "Mən də Tərlan adlı şəxsin istifadəsində olan telefon danışıqlarına dair məlumatları əldə edərkən onun Mark Şamilov adlı bir şəxslə konfliktinin olduğunu müəyyən etdim. Bundan sonra Markı MTN-ə dəvət edərək Tərlanın qanunsuz əməlləri barədə məlumat əldə etdik. Bu barədə sabiq nazirə məruzə edildi. Daha sonra Tərlan adlı şəxs Bakı Şəhər Prokurorluğunda aparılan cinayət işi üzrə həbs olundu. Sonra bizə kömək edən Mark Şamilov isə Maqsud Mahmudov adlı şəxsin onun torpaq sahəsini zəbt etdiyini bildirərək köməklik etməyimizi xahiş etdi".

**MTN-də iş adamı Maqsud Mahmudovdan hədə-qorxu ilə pul alındığını etiraf edən İlqar Əliyev ifadəsinə bunları əlavə edib:** "Daha sonra Elçin Quliyevə məruzə edərək razılığını aldıqdan sonra Maqsud Mahmudovu MTN-ə dəvət etdik. Bu işi Antiterror Mərkəzinin əməkdaşı Azər Mehdiyevə



tapşırdım. Sonra Antiterror Mərkəzinin zabiti Ayaz Gərayzadə Maqsudun onun tanışı olduğunu deyərək kömək etməyimizi xahiş etdi. Azər Mehdiyev Maqsudu dəvət etdikdən sonra xidməti otağında ona hədə-qorxu gəlmişdi. Buna görə də Maqsudun otaqda halı pisləşmişdi. Azər yanıma gələrək Maqsudun 50 min dollar vermək istədiyini bildirdi. Mən də bu barədə Elçin Quliyevə məruzə etdim. Elçin Quliyev isə 50 min dolların az olduğunu, 200 min verilməsini tələb etdi. Azər yenidən gələrək Maqsudun 150 min dollardan artıq pul verə bilməyəcəyini dedi. Elçin Quliyev də mənim yanımda sabiq nazirə məruzə edərək çağırdıqları Maqsud adlı şəxsin 150 min dollar verə biləcəyini bildirdi. Sabiq nazir də razılıq verərək Maqsudun MTN-dən çıxmasına icazə verdi. Mən də bu barədə Azərə bildirərək Maqsudun MTN-dən çıxmasına icazə verdim. Maqsud ödəməli olduğu pulları bir neçə dəfəyə gətirərək Azərə verdi. Azər də öz növbəsində mənə verdi. Hətta bəzi vaxtlarda Maqsud pulları vaxtında verə bilməyəndə pulun əvəzinə Ayaz Gərayzadə vasitəsilə brilliant və ya digər qızıl-zinət əşyaları göndərirdi. Mən isə hər dəfə həmin əşyaları Ayazın özünə qaytararaq, Maqsudun söz verdiyi pulları gətirməsini tələb edirdim. Maqsudun pulları gətirməyəcəyindən ehtiyatlanaraq onun ölkədən çıxışına qadağa qoymuşduq".

Polkovnik qeyd edib ki, iş adamı Maqsud Mahmudov iki ay ərzində 150 min dolların cəmi 120 minini verib. İlqar Əliyev iş adamından alınan 120 min dolların necə bölünməsi haqda da danışıb.

**O, ifadəsində deyib ki, general Elçin Quliyev Eldar Mahmudova 120 min dolları məruzə edib. Sabiq nazir həmin puldan 70 min dolların köməkçisi Vüqar Mahmudova verilməsini, qalan 50 min dolların isə baş idarə daxilində bölünməsini tapşırıb:** "Elçin Quliyev 70 mini Vüqar Mahmudova göndərdi. 20 mini özü götürdü, 10 mini mənə verdi, 10 mini isə öz aralarında bölmələri üçün Azər Mehdiyev və Ramil Hümbətova verdi. 10 min dolların isə ərizəçi Mark Şamilova verməsi üçün Ramil Hümbətova verdi" - deyə İlqar Əliyev ifadəsinin sonunda deyib.

**Qeyd edək ki, İlqar Əliyev intihar edəndən sonra onun barəsində olan cinayət təqibinə xitam verilib.**

**❑ İlkin MURADOV**



# Türkiyəli iş adamı ilə yumurta davası olan iş adamı saxlanıldı

## Mürvət Həsənli MCQMBİ-yə aparıldı; məsələyə Türkiyənin Azərbaycandakı səfirliyi və Türkiyə İş Adamları Birliyi də qarışıb

**Məşhur "Xəmsə" şadlıq sarayı və bir sıra başqa biznes obyektlərinin sahibi Mürvət Həsənli Daxili İşlər Nazirliyi (DİN) Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən saxlanılıb. İdarədən məlumatı "Yeni Müsavat"a təsdiqləyiblər. Bildiriblər ki, M.Həsənli hazırda idarədədir. O, türk iş adamı Ömür Oral və onun türkiyəli vəkilinin Azərbaycanda hədələnməsi ilə bağlı araşdırma çərçivəsində saxlanılıb.**

Ö.Oral DİN rəhbərliyinə müraciətində qeyd edib ki, vəkili ilə birgə Bakıya gələn zaman hava limanından yerləşəcəyi "Bulvar" hotelinə qədər Mürvət Həsənli tərəfindən təqib edilib. Onu və vəkilini hədələyib. Təqib və təhdid bir neçə ay öncə baş verib, məsələyə Türkiyənin Azərbaycandakı səfirliyi və Türkiyə İş Adamları Birliyi də qarışıb.

İşin qısa məğzi ondan ibarətdir ki, Ö.Oralın sahiblərindən olduğu "Emre Piliç" şirkəti "Siyəzən Broyler" ASC-yə damazlıq yumurta satıb, həmin yumurtaların pulları isə "Siyəzən Broyler" ASC tərəfindən uzun illər Ömür Oralın Azərbaycandakı nümayəndəsi olan "Xəmsə-M" MMC-nin rəhbəri Mürvət Həsənliyə verilib. "Siyəzən Broyler" ASC tərəfindən 3,8 milyon ABŞ dolları M.Həsənliyə verilsə də, sonuncu "Emre Piliç" şirkətinə bu puldan cəmi 2,1 milyon ABŞ dollarını ödəyib, yerdə qalan 1,7 milyon dollarını isə verməyib. Ö.Orala bildirib ki, "Siyəzən Broyler" ASC bu pulları ödəməkdən imtina edir. "Emre Piliç" şirkətinin rəhbəri Ömür Oral bu pulları tələb etmək üçün Azərbaycana gələcəyini və lazımi instansiyalara şikayət edəcəyini bildirdikdə, M.Həsənli cavabında bildirib ki, "Siyəzən Broyler" ASC yüksək hakimiyyət dairələrinə məxsus olduğundan, bu şirkətə qarşı hər hansı addım atıla bilməz. Ö.Oral belə səhv etsə, dərhal həbs ediləcək. Beləliklə də M.Həsənli Ö.Oralın Azərbaycana gəlişinin qarşısını almağa çalışıb. Ö.Oral deyib ki, bu yolla M.Həsənli "Emre Piliç" şirkətinə çatası təxminən 1,7 milyon ABŞ dollarını qanunsuz şəkildə ələ keçirib. O, Azərbaycana gələndən sonra isə onun özünü təhdid etməyə, oğlunu öldürtdürəcəyi ilə hədələməyə başlayıb.



**❑ E.MƏMMƏDƏLİYEV**

# Dörd rayonun meşə mühafizəsi və bərpası müəssisəsinin direktoru işdən çıxarılıb

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşələrin İnkişafı Departamentinin iş planına uyğun olaraq nazirliyin aidiyyəti qurumlarının əməkdaşları tərəfindən bir sıra meşə mühafizə və bərpası müəssisələrində meşələrin mühafizə vəziyyəti araşdırılıb.**

APA-nın ETSN-in saytına istinadən verdiyi məlumata görə, Masallı, Zaqatala, Oğuz, Şabran, Qəbələ və Qusar meşə mühafizəsi və bərpası müəssisələrində aparılan araşdırmalar zamanı sözügedən müəssisələrdə meşələrin qorunub mühafizə olunması sahəsində bir sıra nöqsanlara yol verildiyi müəyyən edilib.

Meşələrin qorunub mühafizə olunmasını qeyri-qənaətbəxş təşkil edərək əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədiklərinə, işçilərin fəaliyyətinə nəzarəti lazımi səviyyədə həyata keçirmədiklərinə, xidməti ərazilərində ekoloji qanunvericiliyin tələblərinin pozulmasına yol verdiklərinə görə Zaqatala, Qəbələ, Masallı və Qusar meşə mühafizəsi və bərpası müəssisələrinin direktorları tutduqları vəzifədən azad olunub, Şabran və Oğuz meşə mühafizəsi və bərpası müəssisələrinin direktorları barəsində isə ciddi intizam tənbehi tədbirləri görülüb.

Masallı, Zaqatala, Oğuz, Şabran, Qəbələ və Qusar meşə mühafizəsi və bərpası müəssisələrinin bir sıra meşəbəyiləri, meşəbəyi köməkçiləri və meşə gözətçiləri tutduqları vəzifədən azad edilib, digər cavabdeh meşə mühafizə işçiləri barəsində isə ciddi intizam tənbehi tədbirləri görülüb.

Hazırda meşə fonduna dəymiş ziyanın bərpa olunması və cavabdeh şəxslərin fəaliyyətinə hüquqi qiymət verilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Qeyd edək ki, Meşələrin İnkişafı Departamentinin iş planına uyğun olaraq yoxlamalar il ərzində mütəmadi olaraq davam etdiriləcək.

YENİ MÜSAVAT
N 94 (6708) 4 may 2017

## Ölkədə ciddi dəyişikliklər prosesi başlayır...




# İqtidar "büdcəni yeyən" bürokratik aparatla vidalaşır-təfsilat

### Baş nazir müavini Əli Əhmədov ciddi dəyişikliklərin anonsunu verdi; ekspertlərin qənaətinə görə, iqtidarın qismən "rahat nəfəs" alması ilə çoxdan gözlənilən struktur islahatları, eləcə də hakim komandada yeniləmələr başlayır...

**Ölkənin neft gəlirlərinin kəskin azalması, dünya iqtisadiyyatında hələ də davam edən böhran Azərbaycan hökumətini dövlət büdcəsində izafi xərcləri azaltmağa və ixtisarlara məcbur edir. Manatın dəyərdən düşməsi, zəruri ərzaq məhsullarının qiymətinin kəskin artması, tikinti bumunun dayanması ilə işsizliyin səviyyəsindəki artım hələ iki il əvvəldən başlaması planlaşdırılan struktur islahatlarını ertələdi. Yaranmış situasiya o cümlədən hakimiyyət komandasında da ciddi yenilənməni təxirə salmağı zəruri etdi.**

Çünki prezident İlham Əliyev hələ ötən il çıxışlarının birində demişdi ki, idarəetmə sahəsində islahatlar "yeni formatda" davam etdiriləcək. Aydın idi ki, söhbət hakimiyyət sistemində islahatları sürətləndirməkdən, əhalinin narazı olduğu bürokratik sahələrdə əsaslı struktur dəyişikliklərindən, idarəetmə sisteminin yenilənməsindən və şəffaf idarəçilik prinsiplərinin daha geniş formada tətbiqindən gedirdi.

Prezidentin birbaşa nəzarəti altında aparılan geniş islahatlar proqramı artıq işləməyə başlayıb, dünya bazarında neftin qiymətinin sabitləşməsi manatın kursunda da stabillik yaradıb, yeni iş yerləri yaradılmaqla mümkün sosial gərginliyin də qarşısı alıb. Üstəlik, yeni sosial mənzillərin tikintisinə start verilməsi ilə əhalinin məşğulluq səviyyəsində yeni artım gözlənilir. Ekspertlərin qənaətinə görə, iqtidarın artıq qismən "rahat nəfəs" alması ilə çoxdan gözlənilən struktur islahatları, eləcə də hakimi komandada yenilənmələr başlamalıdır.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin icra katibi Əli Əhmədovun "Azərbaycan" qəzetinin son sayında bu barədə məqaləsi dərc edilib. Baş nazir müavini məqaləsində bürokratik aparatın əsassız olaraq şişdiyini, bunun isə büdcə xərclərinin artması ilə yanaşı, idarəçiliyin keyfiyyətə mənfi təsir etdiyini qeyd edib. Ə.Əhmədov əlavə edib ki, Azərbaycanda bu sahədə ciddi tədbirlərin görülməsinə ehtiyac var.

**Baş nazirin müavini Dövlət Statistika Komitəsinin məlumatına istinad edərək qeyd edib ki, 2015-ci ildə dövlət idarəetməsi, müdafiə və sosial təminat sahəsində 287,3 min nəfər çalışıb:** "Eyni zamanda bu sahədə çalışanların sayında artım hiss olunmaqdadır. 2010-cu də dövlət idarəçiliyində çalışanların sayı 279 min nəfər olub". İqtidar yetkilisi Dövlət Statistika Komitəsinin məlumatına istinadən bildirib ki, Azərbaycanda əhalinin hər 10 min nəfərinə 287 nəfər dövlət idarəçiliyi sahəsində çalışan işçi düşür ki, həmin göstərici ABŞ, Almaniya və Yaponiya kimi ölkələrdə 100-110 nəfər arasındadır. **Azərbaycanda "büdcəni yeyən" aparatın inkişaf etmiş ölkələrlə müqayisədə təxminən 2,5 dəfə olduğu məlum olur. Ə.Əhmədov bu səbəbdən də dövlət aparatında əhəmiyyətli dəyişikliklərin vacib olduğunu qeyd edir.** "Zəruri, optimal həddə ixtisarların aparılması ilə yanaşı yeni idarəetmə, o cümlədən inzibati-ərazi idarəetmə formalarının tətbiq edilməsi günün aktual probleminə çevrilib. Dövlət idarəçiliyi aparatı nəinki sayca optimal olmalı, habelə çevikliyi, qərarların qəbulu müddətinin minimuma endirilməsi kimi keyfiyyətləri ilə seçilməlidir" deyə, baş nazir müavini sovet termini ilə ifadə etsək, "Qosaparatda" ciddi dəyişikliklərin başlayacağını anons edib.

**Məqalədən həm də o da məlum olur ki, idarəetmə sistemindəki ciddi bürokratik əngəllərin olduğundan iqtidar da narahatdır.** "Bu, idarəetmə fəaliyyətinin faydalılıq əmsalını ciddi şəkildə aşağı salır" deyə, Ə.Əhmədov hökumətin əndişəsini açıq şəkildə bildirib.

İqtidarda gözlənilən kadr dəyişikliklərinə gəlincə, bu baş nazir müavinin səlahiyyətlərində olmasa da, Ə.Əhmədov "hakimiyyət mətbəxinə" bələd məmur kimi bunların da siqnalını verib. O, "aşkarlığın, şəffaflığın təmin edilməsi, idarəetmə sisteminin bütün pillələrinin müxtəlif növdən olan neqativlərdən təmizlənməsi dövlət idarəçiliyi sahəsində islahatların ən vacib sahəsi kimi qeyd edilməlidir" deyə, iqtidarda kadr dəyişikliklərin vacibliyini də vurğulayıb.

**Yeri gəlmişkən, mayın 3-də dövlət təhlükəsizlik orqanlarının tarixi ilə bağlı keçirilən tədbirdə daha bir dövlət rəsmisi, Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun çıxışı da diqqət çəkir. Ə.Həsənov ciddi korrupsiya yuvası kimi ləğv olunmuş MTN-in sabiq rəhbərliyi haqda danışıb. Sitat:** "Bir neçə il bundan qabaq, dövlət təhlükəsizlik orqanlarının sıralarında olan bəzi "generallar" ümummilli liderin gözəl ənənəsini və məfkurəsini yaşatmaq, davam etdirmək əvəzinə, öz naqis əməlləri ilə Azərbaycan milli təhlükəsizlik orqanlarının imicinə xüsusi hazırlanmış anti-Azərbaycan qüvvələrin vura bilməyəcəyi ağır zərbə vurdu".

Ə.Həsənov əlavə edib ki, onlarda "nə əsl peşəkarlıq, nə əsl ziyalılıq var idi, nə də ki, onların intellekti və mənəvi aləmi belə bir orqanın generalı olmağa yaramırdı. Azərbaycan təhlükəsizlik sistemini gözdən salan bəzi təhlükəsizlik orqanlarının keçmiş əməkdaşları ziyalı ailəsində dünyaya gəlsələr də, nə peşəkar kadra çevrilə bildilər, nə də milli ziyalıların sırasına qoşula bildilər". Yüksək dövlət məmurunun bu çıxışı iqtidarda təmsil olunan, amma hələ də hərəkətlərinə "çəki-düzən" verə bilməyən bəzi məmurlara xəbərdarlıq kimi də qiymətləndirilə bilər.

Görünən odur ki, ölkədə ciddi dəyişikliklər prosesi başlayır...

❑ "Yeni Müsavat"

# Arif Rəhimzadədən verilişi qapadılan Turan İbrahimova sərt sözlər

### Komitə sədri: "Verilişi o videosujetə görə bağlasaydılar, elə onun ağzından bir şapalaq vurardılar ki, səsini kəssin"

### Türkçülük günü ilə bağlı təbrikə deputatın reaksiyası: "Mən etnik türkəm"

**Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Arif Rəhimzadə "Yeni Müsavat"a müsahibə verib. Bir sıra aktual məsələlərə münasibətini öyrənmək istədiyimiz komitə sədri bildirdi ki, hazırda gərgin qrafikdə işləyir. Səbəbini soruşduqda, bildirdi ki, rusiyalı politoloq Oleq Kuznetsov hazırda Bakıdadır və onunla mühüm məsələlər ətrafında müzakirələr aparır, tədbirlərdə iştirak edir:**

- Oleq Kuznetsov Xocalı soyqırımının tanınması ilə bağlı qərar layihəsini Rusiya Dövlət Dumasına təqdim etmək üçün petisiya hazırlayıb. Onunla danışmışdıq ki, görək necə edək, lazım olan səslər yığılsın.

***- Bunun üçün nə qədər səs tələb olunur?***

- 200 min səs tələb olunur. İki ay ərzində cəmi 16 min 400 səs yığılıb. Petisiyanın da müddəti 6 aydır, artıq iki ayı gedib.

***- Oleq Kuznetsovu Bakıya siz dəvət etmisiniz, yoxsa öz təşəbbüsü ilə gəlib?***

- Biz dəvət etmişik. 5-6 mayda keçiriləcək konfransa dəvətlidir. Biz də istədik ki, bir-iki gün tez gəlsin. YAP-da da bir tədbir keçirdik, orda iştirak etdi.



***- Səsvermədə aktiv iştirak etməkdən ötrü Rusiyadakı Azərbaycan diasporuna müraciətiniz nəzərdə tutulubmu?***

- Keçirdiyimiz tədbirdə diasporadan da, Prezident Administrasiyasından da, Təhsil Nazirliyindən də nümayəndə var idi, rektorlar da iştirak edirdi. İndi görək bu qurumlar hərəsi nə edir. Hər halda, bütün kanallardan istifadə etmək lazımdır.

***- Deməli, petisiyada 200 min səs yığılsa, Rusiya Dövlət Duması Xocalı soyqırımının tanınması məsələsini müzakirəyə çıxara bilər?***

- Bəli, o zaman məsələyə baxılmalıdır.

***- Arif müəllim, bugünlərdə şayiələr yayılıb ki, Turan İbrahimovun təqdim etdiyi "ATV səhər" verilişi sizinlə bağlı tənqidi fikirlərinə görə qapadılıb. Deyilənlər doğrudurmu?***

- (Gülür) Verilişi o videosujetə görə bağlasaydılar, elə onun ağzından bir şapalaq vurardılar ki, səsini kəssin. O, 10 gün danışdı orda. Ola bilsin onun da bir təsiri olub. O mənada ki, bu ağzına gələni danışırdı. Bəlkə təsiri olub, bir-bir yığılıb, o həddə çatanda bunu başa salıblar.

***- Sizin telekanal rəhbərliyinə, yaxud MTRŞ-yə şikayətiniz olmuşdu?***

- Yox, yox. Mənim şikayətim olmamışdı. Siz də əvvəlki müsahibədə mənə təklif etmişdiniz ki, biz görüşək. O kimdir axı, mən onunla görüşəm, onun haqqında danışam?

***- 3 may Beynəlxalq Söz və Mətbuat Azadlığı günüdür. Ümumiyyətlə, sizin hansısa bir verilişin bağlanması, yaxud bir jurnalistin susdurulmasına münasibətiniz necədir?***

- (Pauzadan sonra) Vallah jurnalist də gərək səviyyəli bir adam olsun da... İndi hər adamı jurnalist eləmək olmaz axı. Çıxır orda danışır. Nə bunun xarici görünüşünə, nə davranışına, nə savadına görə... Hesab edirəm ki, ona layiq adam idi.

***- Jurnalist özü sizə müraciət edib polemika aparmaq istədimi?***

- Yox, nə müraciət? O hesab edir ki, hər şeyi düz deyir.

***- Arif müəllim, bu arada Azərbaycan jurnalistlərini təhqir edən rus diplomatı Mariya Zaxarova barədə də soruşmaq istəyirəm. Siz onun dediklərinə hansısa formada etiraz etdinizmi, yaxud Rusiyadakı dairələrə sözünüzü dedinizmi?***

- Sözün doğrusu, mənim Zaxarovanın təhqir etməsindən heç xəbərim də yoxdur. O məsələ ilə Əli müəllim (Hüseynli - E.P.) məşğul olur. Bu dəqiqə Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupuna o rəhbərlik edir. Mən yalnız Parlament Assambleyasında fəaliyyət göstərirəm, orada komissiya sədriyəm. Ümumiyyətlə, sözün doğrusu, mən bu məsələlərə çox müdaxilə etmirəm. Heç bu məsələdən xəbərim də yoxdur. İndi bu barədə sizdən eşidirəm.

***- Bu arada Rusiya hakimiyyətinə yaxın ekspert Aleksandr Duqinin Bakıya gəlişi, açıqlamalar verməsi də diqqət çəkir. Bu gəlişləri necə qiymətləndirirsiniz?***

- Bilirsiniz necədir? On söz deyilirsə, onun üçü bizim xeyrimizədirsə, biz onu deyənləri müdafiə etməli və həmin məsələləri önə çəkməliyik. Bizim Duqin, ya başqasından azərbaycanlı kimi fikirləşmələrini, Azərbaycanın mövqeyini bütün məsələlərdə müdafiə etməyi tələb etməyimiz doğru deyil.

***- Türkiyə və Rusiya prezidentlərinin Soçi görüşü Azərbaycana nə vəd edir?***

- Türkiyə ilə Rusiyanın yaxınlaşması, əlbəttə, həmişə bizə müsbət təsir göstərir və göstərməlidir. Bütün məsələlərdə...

***- 3 may həm də Türkçülük günüdür. Sizi təbrik etmək olarmı?***

- Əlbəttə, təbrik etmək olar. Mən etnik türkəm. Ancaq xalq kimi azərbaycanlıyam... (Gülür).

❑ Elşad PAŞASOY



# Ərdoğanla Putinin görüşündə mühüm razılaşmalar

## Türkiyə prezidenti: "Danışıqların nəticələrini bir neçə gündən sonra görəcəksiniz"; "İki ölkə arasında münasibətlər xüsusi status əldə edir və tam bərpa olunur"

**Mayın 3-də Soçidə Rusiya prezidenti Vladimir Putin və Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan arasında görüş keçirilib. "Report" bildirir ki, görüş zamanı V.Putin iki ölkə arasındakı münasibətlərin xüsusi status əldə etdiyini və tam bərpa olunduğunu bildirib.**

R.T.Ərdoğan isə rəsmi Moskva və Ankaranın birgə səylərinin Yaxın Şərqdəki vəziyyətə təsir edə biləcəyini açıqlayıb.

Həmin görüşün sona çatmasından sonra hər iki prezident mətbuat konfransı keçirib.

"Rusiya prezidenti ilə aparılan danışıqların nəticələri bir neçə gündən sonra görünəcək". Trend.az xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Soçidə rusiyalı həmkarı Vladimir Putinlə görüşdən sonra mətbuat konfransında bildirib.

Rusiya və Türkiyə prezidentlərinin Soçidə baş tutan görüşündə maraqlı anlar yaşanıb.

"RİA Novosti" xəbər verir ki, liderlər Rusiya prezidentinin "Boçarev ruçey" iqamətgahının danışıqların keçiriləcəyi zalına daxil olarkən Türkiyə nümayəndə heyətində olanlardan bir neçəsi xeyli müddət onlar üçün ayrılmış yerləri tapa bilməyib.

Harada əyləşəcəklərinə qərar verə bilmədiklərindən prezidentlər söhbətə başlamaq üçün onları gözləməli olublar. Vladimir Putin isə yaranmış vəziyyətə yumorla müdaxilə edib və "səninkilər işləmək istəmirlər", - deyə həmkarı Ərdoğanla zarafatlaşıb...

***

"Ərdoğan-Putin görüşünü iki ölkə arasında 2015-ci ilin məlum təyyarə hadisəsindən sonra pozulan əlaqələrin bərpası istiqamətində atılan növbəti addım kimi qiymətləndirmək olar".

Politoloq Şahin Cəfərli bu fikirləri Rusiya və Türkiyə prezidentləri Vladimir Putinlə Rəcəb Tayyib Ərdoğan arasında Soçidə keçirilən və 3 saat davam edən görüşü musavat.com-a dəyərləndirərkən dedi. Rəsmi məlumata əsasən, görüşdə ikitərəfli əlaqələrin inkişafı və genişləndirilməsi, Suriya münaqişəsinin həlli məsələləri müzakirə edilib. Məlum təyyarə olayından sonra iki dövlət arasındakı münasibətlərində yaranan problemlərin tam aradan qaldırılması üçün ümidlər bəslənən Soçi görüşündən gözləntilər böyük idi.

**Qeyd edək ki, R.T.Ərdoğan Ankaradakı hava limanındakı açıqlamasında münasibətlərin normallaşması üçün qarşı tərəfin Türkiyəyə qarşı bütün ticarət sanksiyalarını ləğv etməsinin zəruri olduğunu bildirmişdi. "100 milyard dollarlıq ticarət dövriyyəsinə nail olmaq istəyiriksə, bütün bu məhdudiyyətləri dərhal və tamamilə aradan qaldırmaq lazımdır", - Ərdoğan demişdi. Görüşün bundan sonrakı mərhələdə Ankara-Moskva əlaqələri üçün nələr vəd etməsi haqqında danışan Ş.Cəfərli xatırlatdı ki, prezidentlər artıq əlaqələrin normallaşması mərhələsinin başa çatdığını və inkişafın başladığını da bəyan etdilər, lakin bu, bir qədər nikbin qiymətləndirmədir:** "Çünki Rusiyanın Türkiyə aqrar sektorunun əsas məhsulu olan pomidorların idxalına qoyduğu qadağa davam edəcək. Rusiyanın Türkiyə vətəndaşları üçün tətbiq etdiyi viza rejimi də qüvvədə qalacaq. Bunun əsas səbəbi odur ki, Moskva Türkiyənin təhlükəsiz ölkə olduğuna inanmır və bu ölkə vasitəsilə terrorçuların Rusiyaya daxil ola biləcəyindən ehtiyatlanır".



### "Soçi görüşünü Türkiyənin maraqları baxımından uğurlu hesab etmək olar" - ekspert

**Ş.Cəfərli vurğuladı ki, öz növbəsində prezident Ərdoğan Türkiyənin Rusiyadan taxıl məhsullarının idxalına qoyduğu qadağanın ləğv edilib-edilməyəcəyinə aydınlıq gətirmədi:** "Əgər bu qadağa Rusiyanın pomidor embarqosu ilə bərabər qüvvədə qalırsa, onda ticarət əlaqələrinin tam həcmdə bərpasından söhbət gedə bilməz".

**Politoloq şübhə etmir ki, siyasi-təhlükəsizlik sahəsində əsas müzakirə mövzusu Suriya problemi olub:** "Rusiya və Türkiyə Astana formatı çərçivəsində bu məsələdə yaxın əməkdaşlıq edir. Lakin iki təməl məsələ - Əsədin gələcəyi və kürd məsələsi ilə bağlı fikir ayrılıqları var. Rusiya Əsədi himayə edir, Türkiyə isə Əsədsiz Suriyanın fəal tərəfdarıdır. Bundan başqa, Rusiya ABŞ-la birlikdə PYD-YPG qruplaşmasının əsas himayəçilərindən biridir, Türkiyə isə bu silahlı qruplaşmanı terror təşkilatı sayır və Suriyanın şimalında kürd qurşağının yaradılması məsələsini öz milli təhlükəsizliyi üçün 1 saylı təhdid sayır". **Eksert qeyd etdi ki, prezidentlərin mətbuat konfransında bu məsələlər üzrə tərəflərin anlaşıb-anlaşmadığı məlum oladı:** "Düşünürəm ki, Əsədin gələcəyi məsələsində Türkiyə səbr göstərə bilər, bu baxımdan, mövqelərin yaxınlaşması mümkündür, lakin kürd məsələsində Rusiya və Türkiyənin ortaq mövqeyə gələcəyinə inanmıram. Bu mövzuda köklü fikir ayrılığı davam edəcək".

**Milli Məclisin deputatı Fazil Mustafa musavat.com-a bildirdi ki, bu görüş indiki şəraitdə mühüm əhəmiyyət kəsb edir:** "Soçi görüşü Türkiyə üçün yeni siyasətin formalaşması baxımından faydalıdır. Rusiya üçün də təcrid olunmadan uzaqlaşmaq üçün əlverişli partnyorla yeni əməkdaşlıq formatı ola bilər. İndiki durumda hər iki ölkənin üst-üstə düşən maraqları daha çox olduğudan görüşün müsbət nəticələrinə ümid bəsləmək olar".

**Politoloq Elçin Mirzəbəyli bu fikirdədir ki, Soçi görüşünün nəticəsi olaraq diqqət çəkən əsas məqam prezident Putinin Türkiyə-Rusiya münasibətlərinin bərpasının başa çatdığını bəyan etməsidir:** "Bu isə o deməkdir ki, hər iki ölkə arasında həyata keçirilməsi nəzərdə tutulan Akkuyu AES-in tikintisi və Türk axını layihəsi davam etdiriləcək. Həmçinin iqtisadi əməkdaşlıq əvvəlki məcrasına qaytarılacaq". Siyasi analitik qeyd etdi ki, görüşdə diqqət çəkən digər məqam Suriya böhranının həlli ilə bağlıdır: "Burada isə Türkiyə ilə Rusiya arasında Suriyada təhlükəsizlik zonasının yaradılması barədə də razılığın əldə olunması diqqət çəkir. Bu, şübhəsiz ki, PKK terror təşkilatı və onun qolları ilə mübarizədə Türkiyə üçün olduqca vacib bir məsələdir".

**Politoloqun nəzərincə, diqqət çəkən digər məsələ isə hər iki ölkə rəhbərinin təhlükəsizlik və kəşfiyyat qurumlarının terrora qarşı mübarizədə birgə hərəkət edəcəklərini, hətta rus turistlərin təhlükəsizliyinin təmin olunması istiqamətində də əməkdaşlığa üstünlük verəcəklərini vurğulamalarıdır:** "Görüşü Türkiyənin maraqları baxımından uğurlu hesab etmək olar".

Politoloq qeyd etdi ki, ABŞ-ın kürd separatçıları ilə Türkiyə arasında yaratdığı bufer zonasından sonra Rusiya-Türkiyə təhlükəsizlik zonaları barədə razılığın əldə olunması çox maraqlı gedişdir.

Sözsüz ki, iki nəhəng dövlətin paytaxtları arasında əlaqələrin normallaşması Azərbaycanın da maraqlarına tam uyğundur. Hətta münasibətlərin yeddi ay müddətində soyuduğu dövrdə əlaqələrin bərpası üçün Bakı öz tərəfindən gərəkəni etmişdi və sonradan bu, rəsmən bəyan olundu. Bu mənada Moskva-Ankara yaxınlaşmasının Qarabağ münaqişəsinin həllinə də təsir göstərəcəyinə ümidlər çoxdur. Lakin Soçi görüşündən gələn ilkin məlumatlar və prezidentlərin brifinqindən belə aydın olur ki, Qarabağ məsələsi prioritetlər sırasında olmayıb.

E.Mirzəbəyli də qeyd etdi ki, mətbuat konfransında Qarabağ probleminin həlli ilə bağlı hər hansı bir fikrin səsləndirilməməsi, problemin üzərindən "regional məsələlərin həlli" müstəvisindən dəyərləndirilmələr aparılaraq keçilməsi maraq doğurur.

❑ E.PAŞASOY

# Həmas-İsrail barışığı baş tutacaqmı...

## Elxan Şahinoğlu: "Əks təqdirdə, Həmasın səmimiyyətinə kimsə inanmayacaq və İsrailin cavab tədbirləri daha dəhşətli olacaq"

**Həmas təşkilatının İsraillə barışığa qərar verdiyini açıqlaması gündəmin əsas müzakirə mövzularından biridir. Təşkilatın son bəyanatında 1967-ci il sərhədləri daxilində Fələstin dövlətinin qurulmasını müdafiə etməsi birmənalı qarşılanmayıb. Bir sıra müşahidəçilər bunu bölgədə uzunmüddətli müharibənin nəhayət ki, tarixə qovuşması istiqamətində atılan addım hesab edirlər. Lakin qeyd edək ki, İsrail və Həmas arasında indiyədək dəfələrlə barışıq istiqamətində addımlar atılıb, atəşkəs razılaşması əldə olunub.**

Lakin çox keçməyib ki, razılaşmaları mərmi atəşləri yerlə bir edib. Bu dəfə də Həmasın hərbi qanadının verdiyi bəyanat ümidləri alt-üst edir. Belə ki, İzzəddin Qəssam Briqadaları həbsxanalarda aclıq aksiyası keçirən fələstinli məhbusların tələblərini yerinə yetirməsi üçün İsrailə 24 saat vaxt verib. Axar.az xəbər verir ki, bu barədə bəyanatı İzzəddin Qəssam Briqadalarının rəsmi nümayəndəsi Əbu Ubeydə söyləyib. Qeyd edək ki, İsrail həbsxanalarında təxminən 2 min fələstinli həbs şəraitlərinin yaxşılaşdırılması üçün 17 apreldən aclıq aksiyasına başlamışdı. İsrail həbsxanalarında hazırda 7 min fələstinli məhbus var. Göründüyü kimi, Həmasın digər qanadı konstruktivlik nümayiş etdirənlərdən fərqli yanaşma sərgiləyir və gərginliyin artırılması xəttinə sadiqdir.



Elxan Şahinoğlu

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Həmasın İsrailə yönəlik siyasətinin dəyişməsinin iki əsas səbəbi var:** "Birinci səbəb odur ki, Həmas Türkiyə, Səudiyyə Ərəbistanı və Misirin yardımlarından asılıdır. Bu dövlətlər isə Həmasın radikallığının azalmasını istəyirlər. Ona görə də Həmas yardım aldığı ölkələri eşitmək məcburiyyətindədir. İkincisi, Həmas özü də anlayır ki, İsraili tanımamaq Fələstin problemini həll etməyəcək, tam əksinə, fələstinlilər əvvəlkitək müharibə və səfalət içində yaşayacaqlar. Ona görə də Həmas sonda Fələstin Azadlıq Təşkilatının mövqeyinə gəldi. Bu təşkilat da illər uzunu İsraili tanımırdı, terror aksiyaları törədirdi. Ancaq 1988-ci ildə bu siyasətin nəticə vermədiyini anlayaraq İsraillə dialoq yolunu tutdu. Məhz bunun nəticəsində Fələstin ilkin olaraq muxtariyyət statusunu qazandı. Buna baxmayaraq, Həmasın son açıqlamalarının reallaşacağını gözləmək lazımdır. Yəni təşkilat birinci növbədə İsrail ərazisini raker atəşinə tutmaqdan əl çəkməlidir. Əks təqdirdə, Həmasın səmimiyyətinə kimsə inanmayacaq və İsrailin cavab tədbirləri daha dəhşətli olacaq".

**E.Şahinoğlu hesab etmir ki, Həmasın kompromis nümayişinin arxasında İranın təklənməsi planı dayanır:** "Misir Həmasa daha yaxındır. Misir isə İranın Fələstindəki proseslərə qarışmasını istəmir. Çünki İranın bu proseslərə qarışması həm Fələstinə, həm İsrailə, həm də elə Misirə problemlər yaradır. Ona görə də Həmas Misirlə İran arasında seçim etməlidir. Misiri seçsə, bu yol sülhə, İranı seçsə, əvvəlkitək İsraillə müharibəyə və fələstinlilərin itkisinə aparacaq".

Son günlər ABŞ və Şimali Koreya arasında nüvə müharibəsi təhlükəsindən danışılır. Hesab olunur ki, dünyanın supergücü savaş ünvanını artıq dəyişib və diqqətini Şimali Koreya təhlükəsinin neytrallaşdırılmasına yönəltdiyi üçün digər münaqişə ocaqlarında gərginliyi azaltmağı qarşısına hədəf qoyub. Politoloq E.Şahinoğlu isə Fələstin ətrafında yeni situasiyanın yaranmasının ABŞ-ın diqqətinin Şimali Koreyaya yönəlməsi ilə izah edilməsini doğru saymır: "Güman etmirəm ki, bu məsələnin rolu var. Ancaq o da var ki, Həmasın son bəyanatı Donald Tramp administrasiyası üçün Fələstin problemini həll etmək üçün fürsət pəncərəsi yaradır. Təsadüfi deyil ki, Tramp Fələstinin lideri Mahmud Abbası Ağ Evə dəvət edib".

**Bu arada İsraildən eşidilən növbəti təhdid bəyanatı da diqət çəkir. "Suriyada hələ də tonlarla kimyəvi silah saxlanılır". Bunu yerli televiziyalardan birinə müsahibəsində İsrail baş naziri Benyamin Netanyahu söyləyib.** "Sizi əmin edirəm ki, əgər nə vaxtsa, kimsə bizə qarşı kütləvi qırğın silahından istifadə etmək istəsə, o zaman ona dəhşətli cavab veriləcək. Suriyanın bu addımı BMT-nin qətnamələrinə ziddir", - deyə o bildirib. (Axar.az). Bu isə bölgədə tezliklə sabitliyin bərqərar olacağı barədə ümidləri xeyli azaldır.

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 94 (6708) 4 may 2017

# İŞİD təhlükəsi sovuşurmu...

**Ekspert:** "Bizim Dövlət Təhlükəsizlik Xidmətinin Türkiyə xüsusi xidmət orqanları ilə birlikdə əməkdaşlığı nəticəsində regionda bu şəbəkənin imkanları xeyli məhdudlaşdırılıb"



**İŞİD-ə qarşı genişmiqyaslı hücum əməliyyatları bu terror qruplaşmasını bir qədər zəiflədib. Hətta ötən günlərdə xəbər yayıldı ki, artıq İŞİD "paytaxtını" Suriyanın Rakka şəhərindən ölkənin başqa bir şəhəri olan Deyr-ez-Zora köçürür. Lakin yaşananlar onu deməyə əsas verir ki, İŞİD zəifləsə də hələ də müəyyən gücə sahibdir.**

Belə ki, son olaraq mayın 2-də İŞİD Suriya-İraq sərhədində yerləşən mürtəce kampına hücum edib. Nəticədə isə 37 nəfərin həyatını itirdiyi bildirilir.

Bu da realdır ki, artıq digər ölkələrdən, o cümlədən Azərbaycandan İŞİD-ə qoşulmaq üçün Suriyaya gedənlərin sayı da kəskin şəkildə azalıb.

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl** "Yeni Müsavat"a bildirib ki, İŞİD zəifləsə də hələ ki zərərsizləşdirildiyini söyləmək olmaz:

"İŞİD hələ də paytaxtında oturub və ona qarşı vuruşan qüvvələr Rakkaya hücum etməyə belə cəsarət etmirlər. O mənada ki, xeyli mülki əhali var və bu hücumlar onların həyatlarını itirməsi ilə nəticələnə bilər. Necə ki, Mosulun bir hissəsini də yerli əhaliyə görə azad edə bilmirlər. Orada da yerli əhali sipər kimi qoyulub. Bu baxımdan, İŞİD hələ ortadadır və yeri gələndə bəzi təzyiqlər üçün super dövlətlərə gərəklidir. Məsələn, Bəşər Əsədin taleyi ilə əlaqədar olaraq, orada Rusiyanın mövqeyinin zəifləməsi və ya əksinə, Rusiya kiməsə təzyiq etmək üçün bəzi hallarda koridorlar açır. Bu kimi hallar bir müddət də davam edəcək. İŞİD-in yenidən klassik terror variantına qayıtması və ayrı-ayrı Avropa ölkələrində terror törətməsi məsələsinə gəlincə isə heç bu da yenilik deyil. Bu, terrorçuların əvvəlcədən işlətdiyi metodlardandır. İndi isə ölkələrə silah-sursat keçirmək çətin olduğu üçün başqa formalara əl atıb, maşınları insanların toplaşdığı yerlərə sürürlər. İŞİD hələ bir müddət fəaliyyət göstərəcək. Bir müddət dedikdə bu, bir neçə il çəkə bilər. Hesab edirəm ki, bu dərəcədə radikalizm insanların şüuruna yeridilməsi tez bir zamanda çıxası deyil. Bəlkə də bunun çıxması üçün bütün bir nəslin dəyişməsi lazımdır. O da mümkündür ki, İŞİD bundan sonra elə bir sərt zərbələr alsın ki, bir müddət özünə gələ bilməsin. Lakin İŞİD-in digər terror təşkilatları olan "Əl-Qaidə", "Müsəlman qardaşları" "Əl-Nusra" Cəbhəsi ilə birlikdə toparlanıb, daha effektli hərəkət etmələri də gözlənilməndir. Bunun üçün onlara uyğun, şəraitli olan ölkələr var. Məsələn, Əfqanıstan, Pakistan , müəyyən ərəb ölkələrini qeyd etmək olar".

**Ekspert son zamanlar Azərbaycanda İŞİD-ə qoşulanların sayının azalması məsələsindən də danışıb:** "Deyərdim ki, keçmiş MTN ləğv edildikdən sonra indiki rəhbərlik bu istiqamətdə xeyli işlər görüb. Nəticə olaraq Azərbaycandan Suriyaya gedənlərin də sayı nəzərəçarpacaq dərəcədə azalıb. Eyni zamanda vaxtilə orada olub, sonra geri dönənlər də ciddi şəkildə nəzarətə götürülüb. Onlar arasında həbs edilənlər, məhkəməsi olanlar da var və bu istiqamətdə axın dayanıb. Bu, həm bizim xüsusi xidmət orqanının uğurudur, həm də İŞİD-in özündə də son zamanlar çox gərgin anların yaşanması ilə bağlıdır. Terror qruplaşması sərt zərbələr aldığı üçün insanların ora getməyə qarşı maraqları azalıb. Gedənlər də bilirdilər ki, oradan sağ qayıtmaq çətin məsələdir. Ancaq beyinlərinin "yuyulması" və pul təklifi İŞİD-i onlar üçün cazibədar edirdi. Bizim Dövlət Təhlükəsizlik Xidmətinin, Türkiyə xüsusi xidmət orqanları ilə birlikdə əməkdaşlığı nəticəsində bu işin qarşısı xeyli alınıb. İstər ora getmək, istərsə də gedənlər qayıtdıqdan sonra onlara qarşı münasibətdə dəyişiklik var".

**İ.İsmayıl İŞİD məhv edilərsə Yaxın Şərqdə hansı dəyişikliklərin olacağı məsələsinə də toxunub:** "Yaxın Şərq məsələsi İŞİD-lə bağlı yaranmadığı üçün bu terror qruplaşmasının məhv edilməsi ilə də bitən deyil. Yaxın Şərq məsələsi daha qlobal məsələdir və burada İsrail, eləcə də bir sıra ərəb ölkələrinin mənafeləri var. Bundan əlavə, Yaxın Şərqdə İranın, Rusiyanın, ABŞ-ın da mövqeləri var. 50 ildən çoxdur ki, Yaxın Şərq məsələsi davam edir və hazırda deyərdim ki, bura dünyanın ən narahat bölgələrindəndir. Əksinə, indiki məqamda bütün diqqətlər İŞİD-ə yönəlib. Nəticədə İsrail də bir qədər rahatdır. İŞİD və digər təşkilatlar olmadığı zaman isə Həması silahlandırırdılar. Suriya, İran tərəfindən, yeri gələndə Rusiyanın birbaşa əli olmasa da dolayı yollarla Həmas silahlandırılırdı. Nəticədə Həmas Fələstin bölgəsində İsraili narahat edirdi. O baxımdan, hesab edirəm ki, Yaxın Şərq problemi uzun çəkən prosesdir. Bu, tezliklə həll ola bilməz. Sadəcə olaraq, münasibətlərdə kəskinliyin azalması və ya artması məsələsi ola bilər".

❑ Əli RAİS

# Səfirin ingilis dilini bilməsi şərtdirmi...

**Ekspert:** "Belə bir qayda rəsmi sənədlərdə mövcud deyil, ancaq..."

**UNESCO-nun baş direktoru vəzifəsinə namizəd olan 9 nümayəndənin təqdimat çıxışı və müsahibə mərhələsində Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ingilis dilini mükəmməl bilmədiyi üçün çətin anlar yaşayıb. Belə ki, Polad Bülbüloğlunun da təmsil olunduğu seçim prosedurunda namizədlər üzv ölkə təmsilçilərinin suallarını cavablandırıblar. Təşkilatın əsas işçi dilləri ingilis və fransız dili olub və bir saat yarım ərzində ingiliscə danışmalı olan Azərbaycan təmsilçisinin dil hazırlığının qənaətbəxş olmadığı ortaya çıxıb.**

Polad Bülbüloğlu sözlərin tələffüzündə, intonasiya, söz və məntiqi vurğularda səhvlərə yol verib, hətta bir neçə məqamda sualları qarışdıraraq əvvəlki suallara cavab olaraq oxuduğu mətnləri yeni suallara cavab olaraq səsləndirib.

Bu hal ictimaiyyətdə müzakirəyə səbəb olub və P. Bülbüloğlunun ingilis dili bilgisinin zəif olması bəzi şəxslər tərəfindən qınanılıb.

Azərbaycanın Respublikasının 70-dən çox ölkədə diplomatik korpusu fəaliyyət göstərir. Bəs səfirlər ingilis dilini bilmәlidirlərmi?

**Professor Fərhad Mehdiyev "Yeni Müsavat"a bildirib ki, səfirlərin statusu 1961-ci il tarixli "Diplomatik əlaqələr üzrə Vyana Konvensiyası" ilə tənzimlənir:** "Konsulların fəaliyyəti isə 1969-cu il tarixli Vyana Konvensiyası əsasında tənzimlənir. Bu konvensiyalarda ingilis və fransız dilinin bilinməsi tələb kimi istənilmir. Yəni belə bir şərt mövcud deyil. Ən azından ona görə ki, diplomatlar tərcüməçidən istifadə edə bilərlər. Ancaq onu da deyim ki, bu, çox da praktik olmur və hər dəfə tərcüməçidən istifadə edilməyə də bilər. Məsələn, elə işlər var ki, təhlükəsizlik məsələləri ilə əlaqələndirilərək, tərəflər arasında təkbətək görüş olur. Belə olduqda isə yaxşı olar ki, şəxs ingilis dilində danışa bilsin. Ən azından söhbət səfirdən gedirsə, o, dövlət başçısına etimad məktubunu verir. Adətən dövlət başçısı ilə aralarındakı danışıq isə ingilis dilində olur. Dövlət başçıları da aydındır ki, bir neçə xarici dil bilirlər. Bundan başqa, yeni səfir təyin olunan zaman xarici işlər naziri də ziyafət verir. Orada tərcüməçi vasitəsilə danışmaq mümkün olsa da səfirin özünün ingilis dilini bilməsi yaxşı olar. Ümumiyyətlə, burada təcrübə belədir ki, səfiri birdən-birə təyin etmirlər. Normal halda səfir təyin olunana qədər Xarici İşlər Nazirliyində bir neçə vəzifədən keçir, yalnız bundan sonra səfir olur. Ona görə də bu adamların çoxu bir neçə xarici dil bilirlər. Adətən səfirlik bir karyera işidir. Xaricdə belədir ki, mərhələlərdən keçdikdən sonra səfir təyin olunurlar".

**F.Mehdiyev bildirib ki, səfirin tədbirlərdə çıxış etməsi halları da qaçılmaz olur:**

"Belə olan halda əlbəttə ki, yaxşı olar ki, ingiliscə çıxış edə bilsin. Lakin bunun üçün qəti bir məcburiyyət yoxdur. Polad Bülbüloğlu məsələsinə gəlincə isə nəzərə almaq lazımdır ki, rus dili də BMT-nin altı rəsmi dilindən biridir. Orada ingilis dilindən başqa dillər də var. Fransız, ispan, rus, ərəb dillərini qeyd etmək olar. Rus dili də ingilis dili kimi beynəlxalq dillərdən biri hesab olunur".

❑ Əli RAİS

# "Dilin can incidəndir"



Xalid KAZIMLI

**Hələ 22 il öncə o dövrün qeyri-leqal satirik qəzeti "Çeşmə" mədəniyyət naziri postunu tutan Polad Bülbüloğlu haqqında bir lətifə dərc etmişdi, yazmışdı ki, Azərbaycanda prezident postuna seçilən şəxslər üç şeyə əl qoyub and içir: Konstitusiyaya, Qurana, bir də Polad Bülbüloğlunu vəzifədən çıxarmayacağına.**

Qəzet bunu ona görə yazmışdı ki, Polad Bülbüloğlu köhnə iqtidarların komandasından qalan yeganə yüksək mənsəbli şəxs idi. O, barəsində fərman verərək, onun işdən azad edə biləcək 5 rəhbər şəxslə işləmişdi.

1988-ci ildə, SSRİ dövründə Polad Bülbüloğlunu mədəniyyət naziri postuna respublikanın faktiki rəhbəri, Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirov təyin etmişdi. O zaman 42 yaşlı Bülbüloğlunun təyinatı hansısa dairələrdə qıcıq doğurmuşdu. Vəzirov həmin tənqidlərə cavab olaraq televiziya ilə nümayiş etdirilən bir toplantıda dedi ki, Poladın yaşını irad tuturlar, amma onun 42 yaşı var. "Oçen solidnıy vozrast", - deyə Vəzirov söhbətə nöqtə qoydu.

Sonradan Vəzirov getdi, Mütəllibov gəldi. Ayaz müəllimin formalaşdırdığı yeni komandada da Polad Bülbüloğlu sevimli və populyar nazirlərdən biri oldu. Hətta Mütəllibov 1991-ci ildə keçirilən prezident seçkisindən sonra yenidən formalaşdırdığı və Ali Sovetin təsdiqinə təqdim etdiyi komandaya Polad Bülbüloğlunu yenidən daxil etdi.

Mütəllibovu əvəz edən Yaqud Məmmədov çox nazir dəyişməyə imkan tapmadı, əsasən güc nazirliklərini yenilədi, amma prinsipcə, Polad Bülbüloğlunu vəzifədən çıxara bilərdi, çıxarmadı.

Yaqub Məmmədovdan sonra parlamentin sədri vəzifəsini tutan, eyni zamanda prezidentin səlahiyyətlərini icra edən İsa Qəmbər xeyli nazir və İH başçısı dəyişdi, amma Polad Bülbüloğlu vəzifəsində qaldı.

Ona prezident Əbülfəz Elçibəy də toxunmadı. Polad Bülbüloğlu yenə postunda qaldı. Heydər Əliyev Vəzirovun, Mütəllibovun, Eçibəyin dövründən qalan bütün yüksək mənsəbli kadrları vəzifədən götürsə də, yalnız Polad Bülbüloğluna dəymədi və on il boyunca ölkənin mədəniyyət sahəsini ona etibar etdi.

Ölkənin ən uzunömürlü naziri statusunu qazanandan xeyli sonra onu mədəniyyət naziri postundan götürüb daha məsuliyyətli, hətta daha prestijli dövlət postuna təyin etdilər - Polad Bülbüloğlu ölkəmizin Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri oldu.

Budur, o, 29 ildir ki, yüksək dövlət postunda fəaliyyət göstərir, indi də UNESKO-nn baş katibi olmaq üçün namizədliyini verib.

Artıq məşhur bəstəkar-müğənninin, diplomatın 42 yaşı yoxdur, 72 yaşı var. Amma Vəzirov demişkən, 72 yaş da mötəbər yaşdır.

İndi sosial şəbəkələrdə Polad Bülbüloğlunun ingiliscə danışmasını əks etdirən videokadrlar yayılır və əksəriyyət onu qınayır. Əslində, bu ingiliscə danışmaq da sayılmaz, Polad Bülbüloğlu ingiliscə yazılmış mətni üzündən oxumağa çalışır və əziyyət çəkir.

Vaxtilə rusca danışanda rəvan, səlis, savadlı təhkiyəsi ilə rusların özünü belə mat qoyan adamın ingilis dilindəki mətni bu cür hıqqana-hıqqana oxuması, daha dəqiqi, oxumağa çalışması kənardan çox pis görünür.

Belə olmamalıdır. Səhnədən vaxtında çəkilmək lazımdır. Bunu kim bilməsə də, parlaq artist keçmişi olan, dünyanın ən böyük səhnələrində fırtınalar əsdirən, SSRİ dövrünün ən yaxşı filmlərindən birində rol alan şəxs bilir, bilməlidir.

Belə durumlarda adam ikili hiss yaşayır. Bir yandan istəyirsən ki, mötəbər beynəlxalq təşkilatın rəhbəri sənin ölkənin vətəndaşı olsun, ötə yandan fikirləşirsən ki, o adam həmin vəzifəyə seçilsə, istər-istəməz ölkənin adını batıracaq.

Çünki o post ona uyğun deyil. Bu aydın görünür. Avropada isə bir adamı vəzifəyə təyin edənlər, seçənlər onun atasının məşhur tenor, opera müğənnisi olduğunu, özünün keçmiş şöhrətini nəzərə almırlar, tutduğu posta nə qədər layiq olduğuna, öz funksiyalarını nə dərəcədə icra etdiyinə baxırlar.

Bir dəfə Polad Bülbüloğlu ORT-də bir musiqi verilişinə qonaq idi. O, həmin verilişdə dilimizin nə qədər gözəl, musiqiyə yatımlı olduğunu göstərmək üçün ana dilimizdə bir kupletlik mahnı oxudu:

"Dişlərin incidəndir, dürdəndir, incidəndir, özün əcəb gözəlsən, dilin can incidəndir".

Aparıcı ritmə, sözlərin düzülüşünə heyran qaldı, mat-mat baxdı. O gün Polad Bülbüloğlu ingiliscə danışanda da ətrafdakılar mat-mat baxırdılar, amma heç kəs demədi ki, dilin can incidəndir.

# Nabran həsrəti



Zamin HACI
zaminhaci@gmail.com

**Dünən xəbər lentində bir başlıq gördüm, xeyli sevindim: "KVN-çinin atası akademiyanın müxbir üzvü oldu". Əla. Yaşasın. Şəxsən məni həmin KVN-çi yoldaş özü bütün həyat və yaradıcılığı boyunca bu qədər güldürə bilməmişdi ki, həmin xəbər güldürdü. Bizdə elmə münasibəti, dövlətimizin ümumi intellektual səviyyəsini bu başlıq gözəl anladır. Kişi səksən ildir elm yolunda can qoyur, ancaq bunun təqdimat formasına baxın: "KVN-çinin atası..." Mən o alimin yerinə olsam BDU-nun kasıb tələbələri üçün satılan 1 manatlıq elmi dönərdən yeyib intihar edərdim.**

Yanlış olaraq bayaq "intellektual" sözünü "intellektula" yazmışdım, gərək heç düzəltməzdim, ancaq oxucular bilsin biz yazı yazanda nə əzablar çəkirik, neçə sətri pozub, neçə misranı saxlayırıq. Şair Əli Kərim (bəzi hüquq-mühafizə orqanı zəhmətkeşlərimiz bu şairi AXCP sədri Əli Kərimli ilə qarışdırırlar) məhz bu yerdə yaxşı deyibdir:

**"Çox yazdım gecə...**
**Pozdum.**
**Demə, barını dərdim.**
**Könül alışdı, yandı.**
**Başımdan aşdı dərdim,**
**Bir qalın xətt çəkəndə**
**Üstündən yazdığımın,**
**Kağızda yeri qaldı.**
**Heç olmasa,**
**Deyərlər: - Şairin oxucuya**
**Bir hörmət sətri qaldı".**

Mən sizə deyim ki, Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətində ciddi qüsurlar hiss olunur. Hesablama Palatası yoxlasa, neçə elmi kəşfin yeyildiyini, nə qədər ixtiranın şəxsi məqsədlər üçün istifadə edildiyini aşkarlayar. Örnək üçün, elə o KVN-çi qardaşın özünə də akademik adı vermək olmazdımı? Olardı. Paxıllıq qoymur verək.

Yaxud təzə müxbir üzv adı alanların siyahısında keçmiş təhsil nazirimiz hörmətli Misir müəllimin adını gördüm. Ayıb deyilmi? O cür alim adam hələ indi, özü də akademiyanın müxbir üzvü adını alır. Halbuki Misir müəllimə birbaşa "Platon" adı versən yenə azdır. Platon və müxbir demişkən, yaxşı olardı Mətbuat Şurasının sədri Əflatun müəllim biz müxbirlər üçün akademiya yaradılması məsələsinə diqqətlə yanaşsın. Hər cür savadsız adam mətbuata doluşur. Bilmirsən kim reketdir, kim redaktordur. Kim marketoloqdur, kim reportyordur, kim də tansor disko. Bunun qarşısını almaq üçün yaxşı olar bütün jurnalistlər ilk növbədə Əflatun müəllimin deputat seçildiyi Saatlı rayonunda pambıq qurdu yığmağa göndərilsin. Əmək təcrübəsi çox vacibdir. Mən özüm jurnalistikaya gələnə qədər xeyli üzüm, pambıq yığmışam, dana otarmış, xiyar sulamışam.

Laqeydlik pis şeydir, evimizi yıxır. Dünənki yazımda AYB sədri Anar müəllimin islamiadaya biganə münasibətini tənqid etmişdim. Yəqin yadınızda olar, Anar müəllim jurnalistin "İslam oyunlarını izləyəcəksinizmi" sualına "idmançı deyiləm" cavabını vermişdi. Halbuki AYB tarixini izləsək orda həmişə yaxşı idmançılar olubdur. Elə bunların arasında yarış düzəltmək, islamiadada şair və yazıçılardan ibarət xüsusi komanda ilə iştirak dövlətçiliyimiz üçün də müsbət təsir göstərməzdimi? Çox uzağa getmirəm, keçən ay bir yazıçını AYB-nin dəhlizində döyüb xəstəxanaya salmışdılar. Həmin yazıçı yoldaş onu Anar müəllimin köməkçisinin kitabla vurduğunu demişdi. Əlbəttə, yazıçılar birliyində adamı kitabla döyərlər, linglə yox. Bax elə həmin köməkçini idman turnirinə çəkic, nizə atma yarışlarına göndərmək lazım idi.

Yaxşı yadıma düşdü, laqeyd yazıçılarımızdan biri də Elçin müəllimdir. Sovet vaxtı kitablarının altına "Soçi", "Yalta", "Qaqra" sözləri qoyan bu yazıçılar indiki əsərlərini Makedoniya, Sloveniya, nə bilim, Maldiv və Seyşel kurortlarında yazdıqlarını qeyd edirlər. Hətta Elçin müəllim qaçqınlarımızın ağır həyatından bəhs edən "Dağlar arxasında üç kurort" romanını Bodrumun Yalıkavak bölgəsində yazmışdır. Çünki qaçqınların ağır problemləri bu prizmadan baxanda daha kəskin görünür.

İndi söz əlaqədar təşkilatlarındır - Əflatun müəllim bir putyovka düzəltsəydi yayda Nabrana gedərdim.

# NATO üzvünün əsgərləri Qarabağda, bizimlə...



# Türkiyə-Azərbaycan birgə təlimləri - ordu önə keçir

**Azərbaycan-Türkiyə birgə taktiki təlimləri uğurla davam edir. Gözlənildiyi kimi, iki qardaş ölkənin silahlı qüvvələri arasında budəfəki hərbi manevrlər dost-düşmənlərin xüsusi diqqətini çəkib. Bu da bir neçə səbəblə bağlıdır.**

## İki qardaş ölkənin birgə təlimlərinin ardınca Azərbaycan, Türkiyə və Gürcüstan ortaq təlimləri başlayacaq; rusiyalı hərbi ekspert İrəvanı xəbərdar etdi: "Belə təlimlər ən əvvəl Ermənistana güc nümayişidir..."

Birinci səbəb şübhəsiz ki, Türkiyə amili ilə əlaqədardır. Regionun ən güclü, ən döyüşkən ordusuna malik, üstəlik, NATO üzvü olan bir dövlətin məhz Azərbaycanla ortaq təlimlər keçirməsi, ordumuzun döyüş qabiliyyətinin artmasına daima real töhfə verməsi nəzərdən yayına bilməzdi. Fakt budur ki, Türkiyə Azərbaycanla hərbi və hərbi texniki sahədə yüksək səviyyədə əməkdaşlıq edən yeganə NATO ölkəsidir.

Təlimlərə kənardan nəzər-diqqəti artıran ikinci amil Türkiyənin hərbi və döyüş qabiliyyətini artırmağa yaxından kömək etdiyi Azərbaycanın işğalçı Ermənistanla müharibə vəziyyətində olmasıdır. Bu üzdən bəzi siyasi təhlilçilər, ələlxüsus da düşmən tərəfin ekspertləri ortaq təlimlərdə Ermənistana qarşı real təhdid də görürlər. Bəzi erməni təhlilçiləri isə hesab edir ki, bu təlimlər konkret olaraq müharibə hazırlığının tərkib hissəsidir və hərbi təlim adı ilə cəbhə bölgəsinə böyük ordu birləşmələri yeridilə bilər.

Bütün hallarda, yeni düşmən nə düşünür-düşünsün, vaxtaşırı genişmiqyaslı hərbi təlimlər keçirmək, üstəlik, bunu qardaş Türkiyə ilə reallaşdırmaq ərazisinin 20%-i on illərdir işğal altında olan Azərbaycanın halal haqqı, daxili işidir. Aydındır ki, işğala son verilməyincə həm bu cür təlimlər ara verməyəcək, həm də Azərbaycan öz silahlı qüvvələrini ən müasir silahlar və döyüş sistemləri ilə təchiz eləməkdə davam edəcək. Bu yöndə 1 nömrəli müttəfiqimiz və strateji tərəfdaşımız isə təbii ki, NATO üzvü Türkiyədir.

***

**"Son birgə təlimlər istənilən halda qonşu Ermənistana güc nümayişidir". Musavat.com-un erməni qaynağına istinadən verdiyi məlumata görə, bunu Moskvadakı İctimai-Siyasi Tədqiqatlar Mərkəzinin direktoru, hərbi ekspert Aleksey Maxlay Azərbaycan-Türkiyə may təlimlərini şərh edərkən deyib.**

**Ekspert bundan öncə Azərbaycanın 20 minlik canlı qüvvə, yüzlərlə zirehli texnika vahidi və artilleriya qurğusu, digər döyüş sistemləri və pilotsuz uçan aparatların cəlb olunduğu beş günlük (16-21 aprel) hərbi təlimləri xatırladaraq deyib:** "Azərbaycan öncə komanda-qərargah təlimlərini həyata keçirib. Hərb təlimlərin keçirilmə qaydası məhz belədir. Bu, Silahlı Qüvvələrin hazırlığının yoxlanışıdır. Güc nümayişi ortadadır. Deməli, doğru o olar ki, Ermənistan öz silahlı qüvvələrinin döyüş hazırlığının qayğısına qalsın. Bunu regionda formalaşan situasiya diktə edir".

**Bununla belə, rusiyalı analitik Türkiyə-Azərbaycan təlimlərinin Ermənistanla hərbi toqquşmaya gətirəcəyini az ehtimallı sayır:** "Hərçənd etiraf eləmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsi zonasında situasiya hazırda olduqca mürəkkəbdir".

**Ardınca Azərbaycanın silahlı qüvvələrinin son illər xeyli gücləndiyini etiraf edən hərbi ekspert, maraqlıdır ki, Türkiyənin Azərbaycana kömək eləməklə guya beynəlxalq qaydaları pozduğunu iddia edib.** "Türkiyə NATO üzvü olmayan Azərbaycanla hərbi təlimlər keçirməklə beynəlxalq siyasət nöqteyi-nəzərdən BMT Nizamnaməsini kobud şəkildə pozur", - deyə o bildirib.

**Rusiyalı hərbi təhlilçi daha sonra əlavə edib:** "Türkiyəli hərbi təlimatçılar və məsləhətçilər artıq çoxdan Azərbaycandadır və Azərbaycan qoşunlarının hazırlığında fəal şəkildə iştirak edirlər. Bundan başqa, Türkiyə analoji təlimləri Gürcüstanla da keçirir. Yeri gəlmişkən, indiki hərbi təlimlərdən sonra - artıq iyun ayında üçtərəfli Türkiyə-Azərbaycan-Gürcüstan hərbi təlimləri baş tutmalıdır - hansı təlimlər ki, Gürcüstan ərazisində nəzərdə tutulur. Bütövlükdə bu - hərbi güc nümayiş siklidir. Yəni aprelin ortalarından iyunun ortalarına kimi Türkiyə Azərbaycan və Gürcüstanla faktiki surətdə hərbi ustalığı cilalayacaq, praktik surətdə isə Türkiyə bu iki dövlətin silahlı qüvvələrini öyrədəcək, onlarla döyüş əməliyyatları təcrübəsini mübadilə edəcək".

***

Türkiyənin NATO üzvü olaraq məhz Azərbaycan və Gürcüstanın yanında yer alması, bu iki ölkənin müdafiə qabiliyyətinin artmasına kömək eləməsi və ordularının güclənməsində mühüm rol alması əlbəttə ki, təbii və məntiqlidir. Ən azından ona görə ki, hər iki ölkə Rusiyanın birbaşa iştirakı ilə hərbi təcavüzə məruz qalıb və ərazi bütövlüklərini indiyədək bərpa edə bilməyib.

Odur ki, rusiyalı hərbi ekspert əslində Türkiyəni yox, məhz Ermənistanı və onun havadarı Rusiyanı BMT Nizamnaməsini və beynəlxalq hüququ kobud şəkildə pozmaqda qınasaydı, eyni zamanda illərdir yerinə yetirilməyən BMT qətnamələrindən danışsaydı, qat-qat haqlı və əsaslı görünərdi.

Söz düşmüşkən, BMT Nizamnaməsi hər bir ölkəyə öz ərazi bütövlüyün istənilən yolla bərpa etmək haqqı tanıyır. Bu yollardan biri isə hərbi güc yoludur - hansı yol ki, Azərbaycan və Gürcüstan üçün həmişə açıqdır və onu heç kim bağlamayıb. Demək, Türkiyənin Azərbaycan və Gürcüstan üçün ustad dərsləri, ordu faktoru da həmişə aktualdır, öndədir.

❑ **Siyasət şöbəsi**

# Avropa Birliyindən Türkiyəyə dair skandal açıqlama



**Avropa Birliyində müzakirələr üzrə komissiyanın üzvü Yohannes Hahn "Reuters" xəbər agentliyinə verdiyi açıqlamada Türkiyə ilə müzakirələrin sona çatdığını deyib.**

Avropa.info xəbər verir ki, Yohannes Hahn Türkiyənin Avropa Birliyinə üzv olmasının mümkünsüz olduğunu bildirib.

"Türkiyə üçün Avropa Birliyi yolunun sonu çatmışdır. Hazırda hər kəs üçün olduqca aydındır ki, Türkiyə Avropa perspektivindən uzaq hərəkət etməyə başlayıb" deyə Yohannes Hahn qeyd edib.

Bununla yanaşı, Yohannes Hahn Avropa İttifaqının ticarət və təhlükəsizlik məsələlərində Türkiyə ilə hələ də əməkdaşlıq etmək istədiyini də bildirib.

Qeyd edək ki, Yohannes Hahnın bu açıqlaması təəccüblə qarşılanıb. Çünki cəmi bir neçə gün öncə AB rəsmiləri Türkiyə ilə müzakirənin başa çatmadığını bildirmişdilər.

YENİ MÜSAVAT
N 94 (6708) 4 may 2017

# Putinlə Merkel dostlaşır

## Almaniya kanslerinin Moskva səfərinin ortaya çıxardığı suallar və reallıqlar

**Rusiya prezidenti Vladimir Putin və Almaniya kansleri Angela Merkel arasında mayın 2-də Moskvada baş tutan görüşdə G20 sammitinə hazırlıq, Suriya və Ukraynadakı vəziyyət müzakirə edilib. Bu barədə V.Putin danışıqların ardından keçirilən mətbuat konfransında məlumat verib.**



Rusiya dövlət başçısı ölkəsinin G20 sədri Almaniyaya bütün zəruri yardımı göstərməyə hazır olduğunu vurğulayıb.

A.Merkel isə çıxışında V.Putinlə danışıqların intensiv hal aldığını deyib. Rusiyanı konstruktiv tərəfdaş adlandırıb.

Kansler ikitərəfli, o cümlədən iqtisadi sahədə əməkdaşlıq məsələlərinin müzakirəsindən əlavə, tərəflərin Ukraynanın cənub-şərqindəki vəziyyəti müzakirə etdiklərini vurğulayıb: "Vəziyyətin nizamlanması üçün Normand formatını dəstəkləməyə davam edəcəyik. Çətin prosesdir, çox zəif sürətlə irəli addımlayırıq. Bu mərhələdə əsas atəşkəs və barışığı bərpa etmək, sonrakı siyasi addımları müəyyənləşdirməkdir".

Onun sözlərinə görə, Almaniya həmçinin terrorizmə qarşı birgə mübarizə çərçivəsində Rusiya ilə əməkdaşlıq imkanlarını nəzərdən keçirir.

**Maraqlıdır ki, Putinlə görüşdən az sonra Merkel Türkiyəyə yönəlik yumşaq fikirlər səsləndirib:** "Türkiyədə baş verən neqativ halları açıq şəkildə dilə gətirə bilərəm. Türkiyənin "prezident respublikası" sisteminə keçid alması məsələsinə münasibətimizi, tənqidimizi açıq şəkildə bildirməliyik. Lakin çox da dərinə getmək olmaz, çünki Türkiyə ilə müttəfiq olmaq bizim mənafeyimizə uyğundur.

Amma rəsmi Ankaranın edam qərarını təsdiq etməsi Türkiyə ilə Avropa Birliyi arasındakı danışıqlar prosesinin əsas sütununu sarsıdacaq".

Ekspertlərin fikrincə, son zamanlar Türkiyə ilə münasibətləri istiləşən Rusiyanın dövlət başçısının Almaniya kansleri ilə görüşdə onun Türkiyə məsələsində mövqeyinə təsir etdiyi istisna deyil.

Bəs maraqlıdır ABŞ-la Rusiyanın münasibətlərinin getdikcə gərginləşməsi getdiyi bir vaxtda Almaniyanın Rusiya ilə yaxınlaşması Avropa Birliyi-ABŞ münasibətlərinə soyuqluq gətirəcəkmi? Merkellə Putinin son zamanlar münasibətlərində yaxınlaşmadan daha çox qazanan kimdir?

**Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev bildirdi ki, son 10 ildə Almaniya Merkelin rəhbərliyi ilə bacardığı səviyyədə öz çıxarlarına hesablanmış siyasət yürütməyə çalışır. Almaniya Britaniya xaric bütün Avropa üçün məsuliyyət daşıdığı mesajını həmişə verib. Putinlə də müxtəlif zamanlarda və yerlərdə mütəmadi görüşləri olub. Amma bu son iki ildə onun Moskvaya ilk səfəridir:** "Putinlə bu görüşün münasibətlərdə yaxşılığa doğru nələrinsə dəyişəcəyinə inanmıram. İlk baxışdan isti görünə biləcək, qarşılıqlı fikir mübadilələri, olacaq bəyanatları diplomatik etiket kimi qəbul etmək lazımdır. Əslində bağlı qapılar arxasında, mətbuata açıq olmayan danışıqlarda əminəm ki, Krım, Suriya məsələləri də ciddi danışıqlar predmeti olub . Ümumilikdə bu səfərin baş tutması hər iki lider üçün xeyirli ola bilər. Onların hər ikisinə məlumdur ki, Rusiyaya qarşı beynəlxalq təzyiqlərin, sanksiyaların belə səfərlərlə aradan qalxması mümkün deyil. Amma tərəflər bundan maksimum divident götürməyə çalışacaqlar".

**Ekspertin fikrincə, Rusiya Avropa İttifaqının qeyri-rəsmi liderinin görüşə gəlməsini bütün gücü ilə təbliğ edib mövqelərinin güclənməsi görüntüsünü yaradacaq. Merkel isə bundan daha çox xeyr götürməyə çalışacaq:** "O, Ukrayna, Yaxın Şərq probleminin həlli ilə bağlı çalışdığı mesajını bir daha verəcək, Avropa İttifaqına qaz nəqli ilə bağlı bazarlığını edəcək. Eyni zamanda bir neçə ay sonra Almaniya Bundestaqına seçkilər keçiriləcək. İlkin proqnozlar Merkelin Xristian Demokrat İttifaqının bu seçkiləri qazanacağını göstərsə də, son illər Avropa ölkələrində seçkilərdə olan gözlənilməz sürprizlər onu daha ehtiyatlı və hazırlıqlı olmağa məcbur edir. Ona görə də bu səfər həm də Rusiya ilə münasibətlərin kəsilməsini və kəskinləşməsini istəməyən , qaçqınlar problemində onu ittiham edən seçiciləri öz tərəfinə çəkməyə və ya neytrallaşdırmaqda ona yardım edə bilər və Merkelin aqressiv siyasət yeritdiyini deyən opponentlərinin ona qarşı əsas təbliğat silahını zəiflədər".

**E.Mustafayev dedi ki, Almaniya adətən ABŞ-la da münasibətlərinin pisləşməsinə şərait yaratmır:** "Bir neçə il öncə ABŞ xüsusi xidmət orqanlarının Avropa liderlərini, xüsusilə də Merkeli dinləmələri skandalı çıxandan sonra Merkel heç nə olmamış kimi məsələnin üstündən keçərək iki dövlət arasında soyuqluğun yaranmasına imkan vermədi. Hesab edirəm ki, Merkelin son Moskva səfəri ilə bağlı ABŞ rəhbərliyi ilə razılaşmalar olub. Hətta orada səslənəcək bəzi fikirlər də razılaşdırılıb. Siyasətdə bu, normal gedişdir. ABŞ Rusiya məsələsində daha barışmaz , kəskin mövqedə olsa da, Aİ ona nisbətdə daha yumşaq görünür. Yəni danışıqlar aparmaq üçün daha əlverişli tərəf kimi hər zaman meydandadır. Bütövlükdə isə ABŞ və Aİ fərqli ritorikalarda olsalar da eyni mövqedədirlər. Rusiya bunu bilir. Amma onu danışıqlarda nüfuzunu aşağılamayacaq sakit ritorikada olan tərəf qane edir".

❑ **Etibar SEYİDAĞA**

# Duqinin Qarabağ açıqlaması - Kremlin şərti...

## Azərbaycanlı və erməni ekspertlərdən fərqli rəylər



**"Azərbaycanın ərazi bütövlüyünün Rusiya tərəfindən tanınması ən vacib arqumentdir". Bunu Azərbaycanda səfərdə olan rusiyalı məşhur filosof və politoloq, Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, bu məsələdə ən vacibi odur ki, Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Duqin konfliktin həlli ilə bağlı da danışıb. Politoloqun sözlərinə görə, əgər tərəflər işğal edilmiş beş rayonun tezliklə Azərbaycana qaytarılması ilə bağlı razılığa gəlsələr, bu, Rusiya-Azərbaycan əməkdaşlığında çox vacib məqam olacaq: "Qarabağın özü və qalan iki rayonla bağlı vəziyyət isə daha mürəkkəbdir və daha çox vaxt tələb edə bilər".**

Qeyd edək ki, Aleksandr Duqin Kreml "mətbəxinə" yaxın şəxslərdən sayılır. Bu baxımdan, onun Qarabağla bağlı açıqlamasını Kremlin mövqeyi də saymaq olarmı?

**Politoloq Elxan Şahinoğluna görə, Duqinin Bakıya səfərini və verdiyi açıqlamaları şişirtməyə dəyməz:** "Çünki o, Kremlin sözçüsü və ya təmsilçisi deyil. Ola bilər ki, nə vaxtsa onun açıqlamaları rusiyalı rəsmilərin diqqətini çəkib. İndi də belə olduğunu düşünmürəm. Rusiya mediası son zamanlar Duqinin fikirlərinə çox az yer verir. Halbuki əgər o, Rusiyada müəyyən mərkəzlərin fikirlərinin ifadəçisi olsaydı, gərək Rusiyanın televiziya kanallarından düşməzdi. Həmin kanallarda isə başqa ekspertlərdir. Bunu da açıq demək lazımdır ki, Rusiyada lobbi maraqlarımızı gücləndirmək üçün siyasi ekspertlər arasında iş aparılmalıdır. Bunun üçün də maliyyə xərclənməlidir. Ancaq elə ekspertlərlə təmas qurulmalıdır ki, onların Rusiya cəmiyyətinə və informasiya vasitələrinə təsir imkanları olsun, yazıb-yaradan insanlar olsunlar.

Rusiyalı siyasətçilərin, liberalların, radikalların, kommunistlərin, ermənipərəst jurnalistlərin, ayrı-ayrı siyasi ekspertlərin Bakıya səfərlərinin əleyhinə deyiləm, qoy gəlsinlər, fikir mübadiləsi olsun, Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini eşitsinlər. Ancaq bütün bunlar o demək deyil ki, Rusiyadan kim gəlirsə, birbaşa Kremlin hansısa mesajları Kremlə çatdırır. Bəzən bizə belə yanlış təlqin etdirməyə çalışırlar ki, Bakıya gələn rusiyalı ekspertlər, o cümlədən Sergey Markov və ya Aleksandr Duqin az qala, Putinin baş məsləhətçiləridir və ya Kreml sahibi tez-tez onları dinləyir. Əlbəttə, Markov və Duqin Qarabağ məsələsində bizim mövqeyə anlayışla yanaşırlar, bu müsbətdir, ancaq bu o demək deyil ki, onların siyasi baxışları Rusiya kütləvi informasiya vasitələrinə və ya Kremlə yol tapır".

**E.Şahinoğlu dedi ki, Rusiyada efir ermənipərəstlərlə, anti-türk elementlərlə doludur:** "Buna baxmayaraq, necə ki, Rusiyada erməni lobbisi fəaldır və geniş təsir imkanları var, eləcə də biz qonşu ölkənin fərqli ekspertləri ilə dialoq içində olmalıyıq. Niyə də Rusiyada azərbaycanpərəst ekspertlər olmasın? Bir şərtlə ki, özlərinin statuslarını və imkanlarını olduğundan çox da yüksək qiymətləndirməsinlər".

**Konfliktoloq Əvəz Həsənov isə bildirdi ki, Aleksandr Duqin əslində yeni ideya ilə gəlməyib:** "Onun təklif etdikləri uzun illərdir ki, müzakirə olunur və ciddi effekt verməyən nəticəyə malikdir. Onun səfəri məhz Azərbaycanı Avrasiya İttifaqına qoşulmaq üçün Rusiyanın başladığı kampaniya ərəfəsində baş verir. Bu təklif də məhz bizi şirnikləndirmək üçün Rusiyanın məşhur Avrasiya siyasəti üzrə ruporu tərəfindən edilməklə məhz bu yanaşmaya eyham vurulur.

Duqinin Dağlıq Qarabağın özü və 2 rayonla bağlı dediklərinin də mənası odur ki, əgər Azərbaycan Rusiya ilə münasibətlərini dərinləşdirsə, xüsusən siyasi əməkdaşlıq mümkün olacaqsa, onda 5 rayonun qaytarılmasında təminat alına və Ermənistanı razı salmaq olar. Duqin Rusiya rəsmisi olmadığından siyasi proseslərdən kənar olsa da belə, Rusiya cəmiyyətində Azərbaycana inamın formalaşması və yeni maraqlarının lobbiçiliyində öz rolunu gördüyündən Bakıya səfər etməyə də tənbəllik etməyib".

**Onu da qeyd edək ki, Aleksandr Duqinin Azərbaycan səfərinə erməni politoloqlar da diqqət ayırıb şərhlər verməkdədir. Erməni siyasi ekspert Qalust Qriqoryan son vaxtlar Rusiyadan Azərbaycana çoxsaylı nümayəndələrin getdiyini yazıb:** "Vladimir Jirinoviski, Vladimir Solovyev, ardınca da Duqin. Duqinin səfəri Rusiyanın anti-Ermənistan davranışının son damlası oldu. Duqinin Bakı səfəri Rusiya və Azərbaycanın Qarabağ məsələsində anlaşdığını göstərir". Onun sözlərinə görə, Duqinin səfəri sübut edir ki, Bakı və Moskva pərdə arxasında Qarabağla bağlı razılığa gəlib.

❑ **ETİBAR**

# "Müavini Əli Abbasovun yerinə keçmək üçün 3 dəfə təxribat törətdi"

## Vidadi Zeynalovdan sensasion açıqlama: "İltimas Məmmədov nazirin yerinə keçmək istəyirdi; o, niyə həbs edilmədi?"

**Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndəsi Vüqar Babayev bildirib ki, təqsirləndirilən şəxslərdən Namazalı Məmmədov, Emin Məmmədov və Səhrab Hümbətov dəymiş zərəri ödəyiblər. Nazirliyin nümayəndəsi adıçəkilən şəxslərə qarşı mülki iddialarının olmadığını bildirib.

Vidadi Zeynalovun vəkili Bəylər Məmişov nazirliyin nümayəndəsinə sual verərək 3 nəfər tərəfindən ödənilən məbləğin ittihamda yazılan ümumi mənimsənildiyi deyilən 153 milyondan çıxılıb-çıxılmamasını soruşub.

Vüqar Babayev isə deyib ki, buna yekunda məhkəmə qərar verəcək.

Hakim sərbəst ifadə vermək üçün Vidadi Zeynalova söz verərkən onun vəkili Elxan Süleymanlı vəsatətlərinin olduğunu deyib. Məhkəməyə 3 vəsatət təqdim edən Elxan Süleymanlı qeyd edib ki, həm Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində, həm də məhkəmə istintaqında ciddi prosessual qayda pozuntuları var.

**Vəkil çıxışına əlavə edib:** "Mənimsənildiyi deyilən 153 milyon göstərilib. Amma mülki iddiaçı dəqiq olaraq hansı məbləği müdafiə etdiyini açıqlamır. İstintaq dövründə bəzi şəxslər dəymiş zərəri ödəyib. Amma bu məbləğ məlum deyil. Maraqlıdır ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində dəymiş zərər bəzi şəxslərə ödətdirilib. Bəlkə məhkəmə istintaqı başqa qərara gələcəkdi? Kim məcbur etdi ki, bu məbləğ ödənilsin? Əgər ödənilibsə, bu şəxslər cəmiyyət üçün hansı təhlükəni törədirlər ki, onlar yenə də burada oturublar? Biz tələb edirik ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə sorğu göndərilsin və ödənilən məbləğ dəqiqləşdirilsin".

**E.Süleymanlının digər vəsatəti ekspertlərin, əlavə şahidlərin, mütəxəssislərin dindirilməsi ilə bağlı olub. Vidadi Zeynalovun vəkilinin sonuncu vəsatəti isə sənədlərin elan edilməsi ilə bağlı olub. Vəkil bildirib ki, cinayət işi materiallarında olan ekspert rəyləri məhkəmədə elan edilməli və müzakirə edilməlidir.**

"Biz məhkəmənin hazırlıq iclasında vəsatətlər vermişdik. Amma həmin vəsatətlər müzakirə edilmədən saxlanıldı. Məhkəmə istintaqı dövründə ciddi prosessual pozuntular qeydə alındı. Biz belə qənaətə gəldik ki, bu elə korrupsiyada aparılan qərəzli istintaqın davamıdır. Biz keyfiyyətli müdafiə qura bilmirik. Bir vəkil kimi mənim hüquqlarım pozulur. Bir cümlə ilə vəsatətlər təmin edilmir. Cinayət işi materiallarında yer alan aktlar bu insanların gələcəyini, taleyini həll edir. İndi də həmin sənədlərə istinad edərək bu şəxsləri ittiham edirlər. İstintaq orqanı tələb etdiyi, ittiham aktında yazdığı məbləği əsaslandırmır, kökünü göstərmir. Bir cümlə ilə məbləğ yazılır. Ötən prosesdə məhkəmə bildirdi ki, riyazi hesablama aparmaqla bu məbləği müəyyən etmək olar. Onda biz də məhkəmədən xahiş edirik ki, burada sadə riyazi hesablama aparılsın və görək hansı məbləğ ortaya çıxacaq"- deyə vəkil çıxışına əlavə edib.



Bu vəsatətlərə bəzi vəkillər etiraz edib. Həmin vəkillər dəymiş zərəri ödəyən təqsirləndirilən şəxslərin vəkilləri olub. Onlardan biri - "Aztelekom" MMC-nin sabiq rəhbəri Məhəmməd Məmmədovun vəkili deyib ki, təqsirləndirilən şəxslərin dəymiş zərəri ödəməsi ilə bağlı istintaq materiallarında məlumat var. Vəkil bu səbəbdən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə sorğu göndərilməsinin mənasız olduğunu və digər vəsatətlərin də əsassız olduğu üçün təmin edilməməsini istəyib.

**Vidadi Zeynalovun vəkili Bəylər Məmişov çıxışında deyib ki, mülki iddia konkret olaraq göstərilmir:** "Mülki iddiaçı belə konkret məbləği müdafiə edə bilmir. Ekspertiza təyin edilsin, dəqiq məbləğ müəyyən edilsin. Vidadi Zeynalovun yaxınlarının da dəymiş zərərin ödənilməsi ilə bağlı təşəbbüsü var. İstəyirik ki, konkret məbləğ müəyyən edilsin və biz də bu məbləğlə bağlı müzakirə aparaq".

Məhkəmə təqsirləndirilən şəxslərə söz verərək Elxan Süleymanlının vəsatətlərinə münasibət öyrənib.

**İlk olaraq nazirliyin sabiq aparat rəhbəri Vidadi Zeynalov çıxış edib. O, öz vəkilinin birinci vəsatətinin təmin edilməməsini istəyib:** "Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə sorğu göndərməyə ehtiyac yoxdur. Hər adamın ayağına nə qədər məbləğ yazılması qara hərflərlə istintaq materiallarında var. Mənə maraqlı deyil ki, kim nə qədər ödəyib".

V.Zeynalov digər iki vəsatətin təmin edilməsini, Maliyyə Nazirliyinin nümayəndələrinin, ekspertlərin dindirilməsini və sənədlərin elan edilərək məhkəmədə müzakirə edilməsini istəyib.

Məhkəmə yerində müşavirə edərək vəsatətlərə münasibət bildirib. İlk vəsatət təmin edilməyib. Məhkəmə əlavə şahidlərin, mütəxəssislərin və ekspertlərin dindirilməsi ilə bağlı vəsatəti də təmin etməyib və bildirib ki, bu, məhkəmənin əsassız olaraq uzanmasına səbəb olacaq. Sonuncu vəsatət də təmin edilməyib.

**Daha sonra V.Zeynalov sərbəst ifadə verib. 54 səhifəlik sərbəst ifadə hazırlayan Vidadi Zeynalov əvvəlcə ifadə vermək istəmədiyini, ancaq sonradan fikrini dəyişdiyini qeyd edib:** "Ümimiyyətlə, ifadə vermək istəmirdim. Çünki ifadə verənlərin dediklərindən, şahidlərin söylədiklərindən görünür ki, mən heç bir cinayət etməmişəm. İlkin ifadəmdə göstərdiyim kimi, rəhbərliyin dediklərini etmişəm. Amma ictimaiyyətə mən cinayətkar kimi göstərildim. Buna görə də ifadə verirəm ki, kimsə düşünməsin ki, mən qorxduğum üçün ifadə vermirəm. Səhhətimə görə ola bilsin ki, 50 səhifəlik çıxışı oxuya bilmədim. Çoxları mənim çıxışımı səbirsizliklə gözləyirdi. Düşünürdülər ki, mən çox şey deyəcəm. Amma deməyəcəm. Qoy onlar bir ömür boyu vicdan əzabı çəksinlər".

**V.Zeynalov məhkəmə istintaqı dövründə vəkillərinin vəsatətlərinin təmin edilməməsindən, Maliyyə Nazirliyinin işçilərinin dindirilməməsindən, ekspertlərə suallar verilməməsindən narazılığını bildirib:** "Məhkəmədə bir az ədalət olsa 1+1-i 2 olaraq qeyd edəcək. Əgər etməyəcəksə, sağ olsunlar. Qoy əsl günahkarlar vicdan əzabı çəksinlər. Əsl günahkarların cəzalandırılmasına çox az qalıb. Mən və həbsxanada olan digər şəxslər də bu günü gözləyir".

**İttihamı qəbul etmədiyini bildirən Zeynalov ifadəsinin davamına əlavə edib:** "Nazirliyə tabe olan binalarda, ayrı-ayrı idarələrdə aparılan təmir-tikinti işlərində iştirakım olmayıb. Həmçinin materialların alınması işlərində iştirakım yoxdur. Məsul şəxs olmamışam, heç bir sənədin altında imzam yoxdur. Günahım odur ki, mənə əlavə tapşırıq veriləndə gərək qəbul etməyəydim".

**V.Zeynalov çıxışında sabiq nazir Əli Abbasovun müavini olmuş İltimas Məmmədovun ünvanına sərt ittihamlar səsləndirib:** "Sabiq nazir müavini İltimas Məmmədov bu işlərdə daha çox günahkardır. O, 3 dəfə beynəlxalq tədbirlərdə bilərəkdən təxribat törədərək Əli Abbasovun işdən çıxarılmasına nail olmaq istəyirdi. İltimas Məmmədov nazirin yerinə keçmək istəyirdi. O, niyə həbs edilmədi? Niyə ən azından obyektivlik naminə İltimas Məmmədov şahid kimi gətirilib dindirilmədi? Məhkəmə kimdən və niyə çəkinir? Mənə və qardaşıma vaxtilə deyilmişdi ki, bu ölkədən çıxıb gedək. Bizim ya çoban, ya da balıqçı olacağımızı, vaxt gələcək etdiklərimizə görə peşman olacağımızı deyirdilər. Amma biz bunlara əhəmiyyət vermədik. Mən əgər günahkar olsaydım, əmlaklarımı ailə üzvlərimin, yaxınlarımın adına keçirməzdim. Başqaları kimi xaricə çıxarardım. İndi də imkan vermirlər ki, əmlaklarımı satıb dəymiş zərəri ödəyim. Məhkəmədən də xahiş edirik ki, ekspertlərin də müəyyən etdiyi məbləğlə əmlaklarımın satılmasına şərait yaradılsın. Əgər buna da razı deyillərsə, indidən desinlər, biz də müştəri axtarmayaq".

**Vidadi Zeynalovun çıxışına müdaxilə edən vəkili Ceyhun Yusifov prosesin təxirə salınmasını məhkəmədən xahiş edib:** "Hüquqlarını müdafiə etdiyim şəxsin vəziyyəti pisdir. Təzyiqi yüksəkdir. Xahiş edirik ki, proses təxirə salınsın. 54 səhifənin artıq 8-ni oxuyub".

**Hakim isə bu etirazı qəbul etməyib və Vidadi Zeynalov çıxışına davam edib. Sabiq aparat rəhbəri məhkəmə istintaqının gedişatında çoxsaylı qayda pozuntularının olduğunu, vəsatətlərim təmin edilməməsinə narazılığını bir daha qeyd edib:** "Ən azı ittihamda göstərilən qiymətlər dollarla olduğu halda manatla hesablandı. Bu da göstərilən məbləğin 25 fazə qədər şişməsinə səbəb oldu. Yoxlama aparanları yaxşı tanıyıram. İnanmıram ki, onlar bu ittiham aktında göstərilən məlumatları, məbləğləri, nöqsanları öz iradələri ilə yazıblar".

Vidadi Zeynalov ittihamda yazılan və mənimsənildiyi deyilən məbləğlərin dövlət əhəmiyyətli tədbirlərin təşkilinə, nazirliyin səlahiyyətlərinə daxil olan işlərin görülməsinə xərcləndiyini deyib. Sabiq aparat rəhbəri Maliyyə Nazirliyi və Vergilər Nazirliyi tərəfindən aparılan yoxlamaların qərəzli və tərtib edilən aktların əsassız olduğunu qeyd edib.

**Vidadi Zeynalov çıxışına davam edə bilmədiyini söyləyib:** "Bu, mənə canımdan əziz deyil. Artıq yaxın məsafədən sizi belə, görə bilmirəm. Bədənim əsir. Bilmirəm, necə edək? Çıxışım hazırdır. Ya sizə verim, ya da başqası oxusun".

Hakim Əfqan Hacıyev bu səbəbdən məhkəməni mayın 10-dək təxirə salıb.

Qeyd edək ki, ittihama görə, Vidadi Zeynalov da daxil olmaqla, məhkəmə qarşısına çıxarılan 11 nəfər ümumilikdə 153 milyon 143 min manatlıq mənimsəmə və israf etmədə təqsirli bilinir. Cinayət işinin materiallarında yazılıb ki, nazirliyin tabeliyində olan strukturların təmir-tikintisinə, avadanlıqların alınmasına sərf olunmuş məbləğlər şişirdilib, tenderlər formal keçirilib, layihələrin icrası rəhbərliyə yaxın şirkətlərə həvalə olunub.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT

N 94 (6708) 4 may 2017

**Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimləri uğurla davam edir. Mayın 5-də başa çatacaq təlimlərin artıq düşməni ciddi şəkildə narahat etdiyi aydın görünür, ilk günlərin müəmmalı sükutundan sonra işğalçı ölkədən verilən reaksiyalar da bunu təsdiqləyir. Ermənistanın ayrı-ayrı çevrələrində təşviş var ki, Azərbaycan və Türkiyə hərbi birləşmələri qəfildən Qarabağ torpaqlarının azad olunması əməliyyatına başlaya bilər.**






# Təcavüzkara növbəti dərs vermək zərurəti yaranıb - düşmən təxribatları savaşa aparır

## Hərbi və siyasi ekspertlər İrəvanın işğalçı siyasətinin qarşısında yeganə variantın olduğunu güman edirlər; Türkiyə-Azərbaycan birgə təlimləri Qarabağda davam etdirilə bilərmi?; Müdafiə Nazirliyindən sorğumuza cavab...

Müdafiə Nazirliyinin məlumatına görə, təlimə cəlb edilən bölmələr növbəti mərhələdə qarşılıqlı uzlaşma şəraitində müxtəlif döyüş elementlərini yerinə yetiriblər. Təlim mərkəzində iki qardaş ölkənin bayraqları altında qarşıya qoyulan tapşırıqları yerinə yetirən hərbi texnika və döyüş helikopterlərini görəndə dost sevinir, düşmənin bağrı yarılır. Görünür, elə buna görədir ki, Ermənistan Müdafiə Nazirliyi son günlər bir-birinin ardınca Azərbaycan ordusunun Ermənistanın Tavuş vilayətindəki mövqeləri "atəşə tutduğu" barədə saxta məlumatları yaymaqda davam edir. Növbəti belə məlumat mayın 3-də yayılıb. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovannisyan belə bir iddia ilə çıxış edib. Mayın 2-dən 3-nə keçən gecə Ermənistandakı mövqelərin "atəşə məruz qaldığı" barədə şivən qoparan Ovannisyan həmçinin bildirib ki, itki yoxdur.

Ancaq Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatına diqqət yetirdikdə, məsələnin mahiyyəti üzə çıxır. Rəsmi açıqlamada deyilir ki, Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 119 dəfə pozub. Düşmənin atəş açdığı mövqelərdən bir hissəsi Ovannisyanın dediyi Tavuş vilayətinin "payı"na düşür. Təbii olaraq Azərbaycan tərəfi düşməni cavab atəşi ilə susdurmağa məcbur olub. Deməli, düşmən məqsədli şəkildə Ermənistan-Azərbaycan sərhədində atəşkəsi pozur ki, Azərbaycan tərəfdən atılan güllələrin statistikasını aparsın və iddialarını ictimailəşdirsin. Sözsüz ki, Ermənistan tərəfi gərginliyi iki dövlət sərhədinə keçirməklə məsələyə Rusiyanın, həmçinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının diqqətini cəlb etmək istəyir. Dəfələrlə qeyd etdiyimiz kimi, İrəvan Qarabağ cəbhəsində uğursuzluğa düçar olduğu üçün savaşı iki ölkənin sərhədlərinə keçirmək, münaqişəyə üçüncü qüvvənin cəlb olunması üçün "əsas" hazırlamaq istəyir. Mayın 2-də Ermənistan nümayəndəsi Yuri Xaçaturovun KTMT-nin baş katibi vəzifəsinin icrasına başlaması da işğalçı ölkəni müəyyən qədər həvəsləndirib və bu "şans"dan maksimum yararlanıb Azərbaycana zərbə vurmaq istəyir.

Lakin düşmənin yolunu kəsən bir sıra məsələlər var. Bu sırada Rusiyanın tanınmış politoloqlarından biri Aleksandr Duqinin xəbərdarlıqları da işğalçını tərəddüd qarşısında qoyur. Rusiya hakimiyyətinin mətbəxinə yaxından bələd olan ekspertin "savaş başlasa, Rusiya Ermənistana kömək etməyəcək" deməsi erməniləri narahat etməyə bilməz. Düzdür, Duqin Rusiyanın Azərbaycanın da yanında olmayacağını deyib. Ancaq yetər ki, Moskva əlini işğalçı Ermənistanın kürəyindən götürsün və onu Azərbaycanla təkbətək buraxsın. A.Duqinin "əgər Ermənistan Rusiyanın bu ağır günlərində üzünü Qərbə doğru çevirsə, yer üzündən silinəcək" - xəbərdarlığı da unudulmayıb. Üstəlik, onun bugünlərdə Bakıda Ermənistanı 5 rayonu azad etməyə çağırması da işğalçı üçün xoş olmayan perspektivlərdən xəbər verir.

Azərbaycan və Türkiyənin birgə hərbi təlimləri də, qeyd etdiyimiz kimi, işğalçının rahatlığını pozur. Türkiyə birgə hərbi təlimləri bizə hansı üstünlüklər vəd edir? Gələcəkdə iki ölkənin Rusiya-Ermənistan birgə hərbi birləşmə, yaxud hərbi bazasının yaradılması gündəmə gələ bilərmi? Qarabağın azad olunması əməliyyatında birgə iştirak necə, mümkündürmü? Bu suallarla Müdafiə Nazirliyinə (MN) müraciət etdik. Mətbuat xidmətindən "Yeni Müsavat"ın sorğusuna cavab olaraq bildirdilər ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi sahədə müqavilə və sazişlərə əsasən hər il iki ölkənin Silahlı Qüvvələri müxtəlif tədbirlərdə iştirak edir. Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında 2016-cı il ərzində Hərbi Hava Qüvvələrinin iştirakı ilə "TurAz Şahini 2016", "TurAz Qartalı-2016" birgə uçuş-taktiki, "Anadolu Qartalı-2016" çoxmillətli, "İŞIK-2016" beynəlxalq axtarış-xilasetmə və digər təlimlər keçirilib. Nazirlikdən bildirildi ki. mayın 1-dən başlanan taktiki təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirmək, əlaqələndirməni inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmaları, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır. "Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlıq, eləcə də bu təlimlər bölgədə təhlükəsizliyin, sabitliyin və əmin-amanlığın qorunmasına yönəlib" - cavabda daha sonra qeyd olunub.

Üstəlik, Rusiya-Türkiyə münasibətlərinin getdikcə yaxşılaşması, Ankara və Moskva arasındakı neqativlərin aradan qaldırılmasını Ermənistan həzm edə bilmir. İrəvan çox istərdi ki, bu iki böyük dövlət arasında soyuqluq illərlə davam etsin və onlar Qarabağ məsələsində Ermənistanı hansısa güzəştə vadar etməklə bağlı anlaşmaya gələ bilməsinlər. Mayın 3-də Soçidə keçirilən Rusiya və Türkiyə prezidentlərinin görüşündə Qarabağ məsələsinin də müzakirə mövzusu olduğu şübhə doğurmur. Çünki bu münaqişənin davam etməsi bölgənin sabitliyini ciddi şəkildə təhdid edir.

May ayında düşmənin Şuşa və Laçının işğalının 25 illiyini qeyd etməyə hazırlaşmasına Azərbaycanın sərt reaksiya verə biləcəyi də ehtimal olunur. Aydın məsələdir ki, düşmən bu təxribatlara məqsədli şəkildə əl atır, gərginliyi artırmağa çalışır. Görünür, elə buna görə də ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 4-də Ağdam rayonu ərazisində, Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində, növbəti monitorinqin keçirilməsi planlaşdırılıb. Bu haqda Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndə səfir Anjey Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər (Report.az). Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

Ermənistan prezidenti Serj Sərkisyan isə bu arada Silahlı Qüvvələrin Baş Qərargahı rəisinin müavini general-leytenant Enriko Apriamovu vəzifəsindən azad edib. Axar.az erməni mətbuatına istinadən xəbər verir ki, Sərkisyan bununla bağlı sərəncam imzalayıb. Enriko Apryamov hərbi xidmətdən də uzaqlaşdırılıb. Erməni tərəf generalın öz istəyi ilə uzaqlaşdığını desə də, digər mənbələr fərqli xəbərlər yayır. Düşmən ordusunda ötən ilin aprelində yaşanan gərginlik hələ də davam edir.

**Azərbaycan dövləti isə işğala son qoyulması istiqamətində növbəti addımlarını uğurla davam etdirir. Ordumuzun arsenalının müasir silahlarla zənginləşdirilməsi istiqamətində işlərlə bağlı açıqlama verən hərbi ekspert Üzeyir Cəfərov deyib ki həmin silahlar isə ən müasir yəni, beşinci nəsil silahlardır**. "Bundan sonrakı illərdə də ermənilər üçün reytinq açıqlamaları o qədər də ürəkaçan olmayacaq" - hərbi ekspert deyib (axar.az). Ekspert bildirib ki, Ermənistan tərəfi də Azərbaycanın hərbi gücünün artmasının fərqindədir. Həm rəsmilər, həm də bəzi ekspertlərin verdikləri açıqlamalar buna sübutdur. Aprelin 28-də Moskvada keçirilən Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü şərh edən erməni ekspert Riçard Kirakosyan Azərbaycanın hərbi güc dilində danışması və sürətlə silahlanmasının İrəvanda qorxu və narahatlıq doğurduğunu deyib.

Qeyd edək ki, "Global Firepower Index" (Hərbi Gücün Qlobal İndeksi) təşkilatı 2016-cı il üzrə dünya ölkələri ordularının reytinq siyahısını açıqlayıb. Hesabatda Azərbaycan hərbi gücünün reytinqinə görə 126 dövlət arasında 59-cu yerdə qərarlaşıb. Qardaş Türkiyə ötənilki mövqeyinə görə ilk onluqda yer alaraq 8-ci, Gürcüstan 80-ci, Ermənistan 95-ci olub.

Sülh danışıqlarının uğursuzluğu, üstəlik, Qarabağla bağlı "status-kvo"nun aradan qaldırılması istiqamətində cəhdlərin müşahidə olunmaması hərb variantını önə çıxarır. Milli Məclisin son iclasında da deputat Fərəc Quliyev torpaqları işğaldan azad etmək üçün Ermənistana uzağı 2 ay vaxt verməyi, təcavüzə son qoyulmadığı halda, əməliyyatlara başlamağı təklif etmişdi. Ərdoğan-Putin görüşünün də Qarabağ tənzimləməsinə gətirib çıxarmayacağını düşünənlər əksəriyyət təşkil edir.

Politoloq Hikmət Hacızadə "Yeni Müsavat"a dedi ki, hələ ki heç bir dəyişiklik gözləmir: "Moskva keçmiş SSRİ məkanını öz təsir sferası kimi görür və elə də davranır, istədiyini edir. Buna qarşı isə dünyada hələ ki heç bir ölkə heç nə qoya bilmir. O cümlədən Türkiyə də Qarabağ məsələsinə açıq və geniş şəkildə müdaxilə etmək istəmir və ya hələ ki bunu bacarmır".

**"Gözlənildiyi kimi, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin aprelin 28-də Moskvada keçirilən görüşündə heç nə baş vermədi. Rusiya paytaxtında keçirilən bu görüşün təşəbbüskarı da rəsmi Moskva idi. Onların əsas qorxusu Azərbaycanın güclənməsi və Ermənistana müəyyən təhlükələr yaradacağı ilə bağlıdır. Bu, Ermənistanı və Rusiyanı çox narahat edir". Bunu isə teleqraf.com-a açıqlamasında Dağlıq Qarabağ münaqişəsinin həll istiqamətindəki son prosesləri şərh edən politoloq Fikrət Sadıxov deyib. Politoloq hərbi əməliyyatların yenidən başlayacağı, toqquşmaların olacağı ehtimalının heç vaxt gündəmdən çıxmadığını vurğulayıb:** "Əlbəttə, bunun baş verməsi təkcə bizdən asılı deyil. Bizim strateji məqsədimiz yalnız və yalnız müxtəlif yollarla işğal olunmuş torpaqlarımızı azad etməkdir. Amma eyni zamanda dəfələrlə təkrar edirik ki, biz sülh yolunun tərəfdarıyıq. Bu sülh yolu isə hər halda, müəyyən nəticələrə gətirib çıxarmalıdır. Ermənistanla boş söhbətlər, danışıqlar xətrinə danışıqlar aparmaq Azərbaycanın əsas məqsədi deyil. Əgər Ermənistan təxribatları yenidən gücləndirsə, Azərbaycana qarşı hərbi sahədə ciddi addımlar atsa, ona 10 qat artıq cavab veriləcək. Ötən ilin aprel hadisələri bunu bir daha sübut etdi. Əgər onlar bu hadisələrin yenidən baş verməsini istəmirlərsə, özləri üçün nəticə çıxarmalıdırlar".

Bütün müşahidələr proseslərin hərbi əməliyyatlara doğru apardığını təsdiqləyir. Moskvanın ev sahibliyi də danışıqları ölü nöqtədən tərpədə bilmədisə, üstəlik, Rusiya münaqişəni tərəflərin özlərinin həll etməli olduğuna dair mesajlar verdiyi halda, təcavüzkara dərs vermək zərurəti yaranır.



# İlgək...

**Hüseynbala SƏLİMOV**

**Orhan Pamukun "Qar" romanında bir cümlə var-dır: "Burada insanlar ya ölmək, ya da çıxıb get-mək haqqında düşünürlər..."...**

Deyinmək kimi alınmasın, ilk dəfə bu cümləni oxuyanda elə bildim ki, elə Azərbaycan haqqında yazılıb bu sözlər. Bilmirəm, bəlkə də bu ölkədə yaşamaq başqaları üçün, hətta ola bilsin, çoxu üçün xoşdur. Elə mənim də nə olursa-olsun, onu başqa bir ölkəyə dəyişmək fikrim yoxdur. Həm yaş artıq o yaş deyil, həm də bu ölkəyə çox bağlanmışam...

Amma həqiqəti deməyə bilmirəm. Elə həqiqəti demək də, yazmaq da bir növ mənim və dostlarımın peşəsinə çevrilib, bizim də çörəyimiz elə həqiqəti deməkdən və yazmaqdan çıxır...

Yenə də elə alınmasın ki, guya ölkədə həqiqəti yalnız bizlər bilirik, yox, onu çoxu bilir, sadəcə, insanların əksəriyyəti dilə gətirməyə ehtiyat edir. Biz isə bunu bacarırıq...

Həqiqəti deməyin isə bir üstünlüyü var: sanki bununla o, həyata vəsiqə alır və bizim ardımızca onu deyənlərin sayı artır...

Amma getdikcə yamanca çətinləşir həqiqəti demək və yaxud da yazmaq. Hətta bu xüsusdakı yasaqları belə izləməyə adamın macalı qalmır - birini söyləyib, yerli-yataqlı öyrənib başa çatmamış digəri gəlir gündəmə...

İlk baxışda biz jurnalistlər guya "hərtərəfli qayğı" ilə əhatə olunmuşuq. Di gəl, məsələ də elə bu "qayğı"nın, "diqqət"in çoxluğundadır. Yox, bəzi məqamları mən də başa düşürəm. Anlayıram ki, ölkədə tədricən müxalif jurnalistika yerini müstəqil jurnalistikaya verməli idi.

Əslində müxalif jurnalistika deyilən fenomen də partiyalı media ilə bağlı idi. Vaxtlı ilə ölkədə çoxlu partiya mətbuatı vardı. Tədricən onlar müstəqil media oldular.

Düşünmək olardı ki, bununla bizim yazılı media ikinci nəfəs və yaxud da ikinci ömür tapacaq. Ona görə ki, müstəqil mediaya münasibət tamamilə dəyişməli idi, jurnalistlərə inam və güvənc artmalı idi, çünki bu adamların proseslərə baxışı əvvəlki illərdən kəskin şəkildə fərqli duruma gəlmişdi.

Müxalif media ilə müstəqil media arasında prinsipial bir fərq vardır, hətta psixoloji yanaşma da fərqlidir. Əgər müxalif media proseslərə daha çox neqativ prizmadan yanaşır, hər yerdə qüsur və ya çatışmazlıq arayırsa, müstəqil media haqqında bunu demək olmur və ən əsası da müstəqil media müxalif mediadan fərqli olaraq hər hansı siyasi cinahı təmsil etmir, hakimiyyətə iddialı deyil...

Qərəz, formal məntiq deyirdi ki, müstəqil mediaya hakimiyyətin də münasibəti tamam fərqli olacaqdır. Düzdür, fərq oldu, amma tamamilə başqa səpkidə - müxalifətin əsarətindən qurtulmuş medianın müstəqillik ömrü çox çəkmədi, tez bir zamanda hakimiyyət onu elə bir çərçivələrə saldı ki, müxalifətçi siyasilərin bu heç ağlına da belə gəlmirdi.

Nə isə, başınızı çox ağrıtmaycam. Bayaqdan demək istədiklərimi bir qədər böyük girişdən sonra daha yığcam ifadə etməyə çalışacam. Son bir ayda müstəqil media iki ciddi zərbə aldı. Biri budur ki, ölkədə rəsmi şəkildə bir sıra saytların bloklanmasına start verildi. Amma bu da hamısı deyil və bunun ardınca şəffaflıq adı ilə qəzetlərin maliyyə əməliyyatlarının məhdudlaşdırılmasına yönələn daha bir qərar verildi... İndi hər bir media adamı bircə sual üstündə düşünür: görən, necə olacaq? Bəndəniz hələ də ümid edir ki, bir çıxış yolu tapılacaq. Amma bu vaxta qədər ümidlərimin heç olmasa, bircə faizi gerçək olsaydı o halda sizi də məndən nümunə götürməyə və ümid etməyə səsləyərdim... Təəssüf ki, belə deyil, ümid edə-edə özüm də bir də gördüm ki, hamıdan geri qalmışam və həyat da keçib gedib...

Elə buna görə də yazının adını "İlgək" qoydum, çünki getdikcə boğazımızda gerçəkdən bir ilgək duyuruq. Heç olmasa, düşünərdilər ki, axı bu adamlar on illərdir jurnalistika ilə məşğul olublar. Onlar bundan sonra nə etsinlər?..

Fəqət, heç kim bunu düşünmək üçün özünə əziyyət vermək istəmir, fikirləşirlər ki, jurnalistikaya bu ölkədə "diqqət" onsuz da böyükdür! Nə deyə bilərik? Qoy, onlar deyən kimi olsun...

Amma adam boynunda ilgəklə çox yaşaya bilmir. Özü də bu elə bir cəzadır ki, bəlli müddəti də yoxdur. Daha doğrusu, bunun müddəti də bir ömür qədərdir - kimin üçün beş, kimin üçün on, kimin üçünsə iyirmi il...

# TAP kəmərinin İtaliyada düyün düşən hissəsi...

## Azərbaycanın Avropanı qazla təmin etməsinə kim əngəl törədir?

**Xəbər verdiyimiz kimi, İtaliyanın cənubundakı Salento bölgəsində Transadriatik Qaz Kəmərinin tikintisini əngəlləmək üçün təxribatlar davam edir. TAP şirkəti bir gün əvvəl gecə saatlarında kəmərin tikintisinin aparıldığı və mühafizə olunan əraziyə "No TAP" komitəsinin yüzlərlə aqressiv üzvünün hücum etdiyini bildirib.**

Şirkətin bildirdiyinə görə, aqressiv etirazçılar tikinti ərazisini mühafizə edən mühafizəçiləri söyüb, dəmir hasarın arxasından təhdid edib və daşa basıb. Atılan daşlar insanlara dəyməsə də avtomobillərə zərər yetirib. Habelə etirazçılar özləri ilə gətirdikləri iş alətləri ilə ərazini mühafizə etmək üçün çəkilmiş dəmir barmaqlıqlardan 35-ni kəsib, onlardan 5-ni özləri ilə aparıb. Mühafizəçilərdən biri baş verənləri smartfona çəkib və TAP şirkəti həmin kadrları aqressiv qrupun əməllərinin sübutu kimi yayıb. Şirkət "No TAP" komitəsini İtaliya dövlətinin qanunlarına qarşı cəngəllik qanunları tətbiq etməkdə, aqressiya və zorakılığa əl atmaqda ittiham edib.

Xatırladaq ki, "No TAP" komitəsi İtaliya parlamentində yerlərin 22 faizinə nəzarət edən, şoumen Beppe Grillonun başçılıq etdiyi "5 Star" hərəkatı tərəfindən yaradılıb. Komitə kəmərin ətraf mühitə və Melandunyonun çoxillik zeytun bağlarına ziyan vuracağını iddia edərək neçə vaxtdır TAP-a qarşı aksiyalar keçirir, müxtəlif təxribatlara əl atır. Bu hərəkatın Rusiya ilə bağlılığı çoxdan məlumdur.

**Politoloq Qabil Hüseynli də hesab edir ki, Azərbaycanın Avropanın qaz bazarına daxil olmasını əngəllmək istəyən birinci qüvvə Rusiyadır.**

**Siyasi şərhçi "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, Rusiya hər vasitə ilə Azərbaycan qazının Avropaya daxil olmasına əngəllər yaradır:** "Bu əngəlləri əvvəl Gürcüstanda yaratmaq istədi , ancaq nail ola bilmədi. Sözsüz ki, Türkiyədə də mane ola bilməz. Daha sonra Yunanıstanda buna cəhd elədi, ancaq sonda Yunanıstan bu məsələdə geri çəkilməli oldu. TAP layihəsi TANAP layihəsinin bir hissəsidir. TAP əsasən İtaliya, Albaniya və lazım gələrsə, Serbiya istiqamətində gedəcək. İtaliyada buna müqavimət göstərilməsi oradakı müəyyən qüvvələrin də əməli olsa da, onlar böyük güc deyillər. İşləyən fəhlələrin daşa basılması mübarizə metodu deyil. Dövlət bu layihəyə icazə verib. Çünki Azərbaycandan İtaliyaya gələn və orada Albaniyaya gedən qaz Rusiya qazından xeyli ucuzdur. Yəni rəqabət qabiliyyəti də çoxdur. 5-10 nəfərin bu prosesə müqavimət göstərməsi layihənin qarşısını almaq demək deyil. Mən əminəm ki, TAP layihəsinə hökumətlər səviyyəsində, Avropa Birliyi səviyyəsində icazə verilib. Hətta onlar minnətçi düşüblər ki, Azərbaycan qazı Avropada rus qazını əvəz eləsin. Bu insanların etirazı heç bir nəticə verməyəcək".

**Politoloqun sözlərinə görə, Rusiya vaxtilə Bakı-Tiflis-Ceyhan neft kəmərinə də müqavimət göstərirdi, lakin alınmadı:** "Yenə də Azərbaycanın enerji layihələrinin həyata keçirilməsinə müqavimət göstərmək istəyi baş tutmayacaq. Azərbaycan tərəfi bu işdən qalib çıxacaq. Əgər bir müddətdən sonra Qətər qazı da Avropaya daxil olsa, Rusiyanın Avropa bazarlarından sıxışdırılıb çıxarılması prosesi tamamilə başa çatacaq. Bizim heç kimə mane olmaq niyyətimiz yoxdur. Rusiya qazı onsuz Şimali Avropa ölkələrinə göndərilir. Ancaq Avropanın 1/3 hissəsini qazla Azərbaycan təmin edəcək. Bu layihənin İtaliyadan keçən hissəsində kimsə tikinti işlərinə mane olmaq istəyirsə, bu baş tutan deyil. Çünki qərarı Avropa Birliyi, İtaliya hökuməti verib. 5-10 nəfərin orada işləyən fəhlələri və texnikanı daşlaması işin sonluğuna təsir etməyəcək. Sadəcə olaraq, İtaliya hökumətinin niyə tədbir görməməsi, polisin niyə həmin şəxsləri həbs etməməsi sual doğurur. Ola bilər ki, yaxın vaxtlarda həbs edəcək. Mən TAP kəmərinin reallaşacağına qətiyyən şübhə etmirəm. Bu baş tutacaq və Azərbaycan qazı Avropaya daxil olacaq".

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə "Yeni Müsavat"a açıqlamasında problemin Azərbaycan üçün elə də mühüm əhəmiyyət kəsb etmədiyini vurğuladı:** "İtaliyada həmin ərazidən cəmi 8 kilometr boru keçməlidir. Bu o qədər də çətin iş deyil. Heç kompressor stansiyası da tikilməyəcək. Bu xətt əsas borunu, sadəcə, kompressor stansiyasına, yəni paylayıcı şəbəkəyə birləşdirəcək. 8 kilometr boru xəttini çəkmək üçün İtaliyaya 2 il vaxt bəs etməyəcək? Onların əsas işi Adriatik dənizinin altındadır. Bir də Yunanıstan və Albaniya ərazisindədir. Orada da işlər normal qaydada gedir. Əgər İtaliya hökuməti üzərinə düşən bu 8 kilometrlik hissəni çəkə bilmirsə, bu onun öz problemidir.

2020-ci ilin 1 yanvar tarixindən İtaliya həm şirkətlərə, həm də "Şahdəniz" konsorsiumu iştirakçılarına gündəlik müqavilə üzrə nəzərdə tutulmuş ödəmələrini edəcək. Bununla da məsələ bitəcək. Faktiki olaraq, bu prosesin Azərbaycan üçün o qədər də əhəmiyyəti yoxdur. Düzdür, qazımız məhz həmin gün Avropa bazarına getməyəcək, bu, 6 aydan və 1 ildən sonra da ola bilər. Necə ki, Türkiyə 2010-cu ildə 2007, 2008 və 2009-cu illərdə almadığı həcmlərə görə ümumilikdə 1,3 milyard dollar "Şahdəniz" konsorsiumuna ödəmələr etdi. TAP kəməri vaxtında reallaşmasa, Azərbaycan bu həcmləri digər ölkələrə sata bilər. Bizim yeraltı qaz anbarları imkanlarımız da var".




**İ.Şabanın sözlərinə görə, belə olan halda Avropa və İtaliya özünün qeyri-ciddi bir ölkə olduğunu göstərmiş olacaq:** "Çünki prioritet layihə elan etdiyi Trans-Adriatik boru kəmərini, Cənub Qaz Dəhlizinin son seqmentini hansısa ekoloji problemlər və yerli əhali ilə mübahisə nəticəsində həyata keçirməmiş olacaq. Nə hökumət, nə hüquq orqanları vaxtında bu məsələ ilə bağlı yerli əhali arasında iş aparmayıblar. Bu layihənin ekologiyaya zərər vurmayacağını onlara dolğun şəkildə çatdıra bilməyiblər. Əgər əhali əvvəldən razı idisə, onların indi yenidən etiraz etməsinin heç bir hüquqi əsası yoxdur. Belə bir əsasla ayağa qalxırlarsa, etiraz edənlər həbs edilməlidir. Çünki istənilən ölkədə hər bu cür layihədə kəmərin keçdiyi ərazilərdə yaşayan insanlarla iş aparılır, xəttin haradan keçəcəyi, ətraf mühitə necə təsir edəcəyi və sairlə bağlı əhali maarifləndirilir. İcmalarla görüşlər keçirilir. İtaliyada da bu icmalarla görüş zamanı belə bir narazılıq ortaya çıxmayıbsa, daha sonra ortaya çıxıbsa, deməli, icmalar bundan özlərinin və digər kommersiya qurumlarının və ya siyasi qurumların maraqları üçün istifadə edirlər. Bu isə cinayət məcəlləsinə düşür".

Məlumat üçün qeyd edək ki, "No TAP" komitəsi və yerli bələdiyyə kəmərin keçdiyi ərazidə 200-dən çox çoxillik zeytun ağacının köçürülməsini əngəlləyə bilmişdi. Lakin məhkəmə şirkətin ağacları köçürməsinin qanuni olduğu haqda qərar çıxardıqdan sonra işlər yenidən başlamışdı.

TAP kəməri Azərbaycan qazının Avropa bazarlarına çıxarılması üçün həyata keçirilməkdə olan Cənub Qaz Dəhlizinin bir hissəsidir. Bu, Avropanın energetika təhlükəsizliyinə və qaz təchizatı mənbələrinin şaxələndirilməsinə yönəlmiş strateji əhəmiyyətli layihədir. Dəhlizlə ildə 10 milyard kubmetr "Şahdəniz" qazının Avropaya nəqli nəzərdə tutulur. Dəhlizin yaradılması və "Şahdəniz" yatağının ikinci fazasının açılması layihəsinin ümumi dəyəri 40 milyard dollar dəyərləndirilir.

❑ **Nərgiz LİFTİYEVA**

# Sabahdan sarı xətt qadağası başlayır - ya 40 manat cərimə, ya da...

## Mayın 5-dən sarı zolaqlarda hərəkət qadağan edilir; Bakıda saatlarla davam edən tıxaclar hökm sürəcək

**Daha bir idman yarışı və günlərlə sürəcək tıxac problemi... Bakı sakinlərini isti yay günlərində tıxacda saxlayacaq qərar 1 gün sonra, yəni mayın 5-dən etibarən qüvvəyə minəcək.**

Musavat.com xəbər verir ki, IV İslam Həmrəyliyi Oyunları zamanı Bakıda "Oyunlar zolağı"nın tətbiq ediləcəyi küçələrdə hərəkət qadağası may ayının 25-nə qədər davam edəcək.

Daxili İşlər Nazirliyi Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polkovnik Vaqif Əsədovun verdiyi məlumata görə, sarı rəngli bütöv hərəkət zolaqlarına ancaq IV İslam Həmrəyliyi Oyunları üçün nəzərdə tutulan nəqliyyat vasitələri buraxılacaq.

Zolaqlar Neftçilər prospekti, Dövlət Bayraq Meydanından başlayaraq Bakı İdman Sarayına qədər olan ərazi, Ziya Bünyadov (Dərnəgül yolu) prospekti, Bakı Dairəvi Yolu, Salyan şossesi, Bibiheybət yolu-1, Bibiheybət yolu-2, Neftçilər prospekti, Qara Qarayev prospekti (bütün yol), Atatürk prospekti, Fətəli xan Xoyski küçəsi, Vaqif prospekti, Hənifə Ələsgərov küçəsi, Tbilisi prospekti, Əbdülvahab Salamzadə küçəsi və Böyükşor şossesi yollarını əhatə edəcək.

Paytaxt Bakıda onsuz da hər gün avtomobil tıxacı yaşanır. Şəhərin elə küçələri var ki, heç pik saatlar olmasa da, həmin yerdə sıxlıq olur.

Dərnəgül yolu və Qara Qarayev prospektində vəziyyət daha kritik olacaq. Dərnəgül yolundan gün ərzində minlərlə sürücü istifadə edir. Bu səbəbdən orada günün pik saatlarında bir neçə km uzunluğunda tıxac yaranır. Əgər "sarı xətt" qadağası da tətbiq edilərsə, Dərnəgül yolunda tıxacların uzunluğu və müddəti daha da artacaq.





Eyni zamanda Qara Qarayev prospektində də vəziyyət eynidir. Bu prospektdə yol 2 zolaqlıdır. Zolağın biri oyunlar üçün qapadılır. Sürücülər, sadəcə, 1 avtomobil zolağı ilə hərəkət etməli olacaqlar. Bu vəziyyət həmin prospektdə də acınacaqlı vəziyyət yaradacaq.

**23 ildir taksi sürücüsü kimi çalışan Əhliman Fərəcov deyir ki, bu qadağa ciddi problemlərə səbəb olacaq:** "Avropa oyunları zamanı biz bunları yaşadıq. Sözün əsl mənasında zülm çəkdik. Saatlarla tıxacda qalırdıq, gün də təpəmizə vururdu. Fikirləş ki, sol yol boşdur, sən 2 saatdır tıxacdasan, amma o yola keçə bilmirsən. Buna əsəb dözər? İslam oyunları keçirilir, çox gözəl, ölkəmiz adına uğurdur. Amma bunu elə etsinlər ki, camaat işgəncə çəkməsin. Biz 20 gün işləməyək, evimizə çörək aparmayaq?"

**Azı 10 ildir sürücü olan Xalid Şükürovun sözlərinə görə, idmançıların iki saatdan bir keçəcəyi yolun bir zolağını tamamilə və sürəkli boş saxlamaq yerinə, zərurət yarandığı halda DYP öndəki avtomobillərdən yol istəməklə və qabağa düşüb yolu açmaqla problemi həll edə bilər:** "İndinin özündə sarı xəttin ən uzun olduğu Ziya Bünyadov prospektində nəqliyyatın hərəkətində çətinlik var. Hər gün sıxlıqla gəlib-gedirik. "20 Yanvar" metro stansiyasından ta "Xəqani-petrol"un yanına qədər avtomobillərin orta sürəti 30-40 km/saat-dan çox deyil. Hələ sarı xətt yasağı olanda görün nə olacaq. Burada yol iki zolaqlıdır, biri də sarı xəttin güdazına gedəndə, o boyda prospekt Yasamalın dar küçələrinə dönəcək və bu yolda yaranan tıxac "20 Yanvar" dairəsində də hərəkəti iflic edəcək. Nəsə bir çarə düşünülməlidir. İdmançıların iki saatdan bir keçəcəyi yolun bir zolağını tamamilə boş saxlamaq yerinə, zərurət yarandığı halda DYP öndəki avtomobillərdən yol istəməklə və qabağa düşüb yolu açmaqla problemi həll edə bilər. Yoxsa bütün may ayı boyunca o yoldan istifadə edənlər çox əziyyət çəkəcək".

**Ekspert Ərşad Hüseynov deyir ki, bəzi küçələrdə sarı xətsiz də keçinmək olardı:** "Bu məsələ onsuz da müvəqqəti haldır. Üç həftəyə qadağa bitəcək. Mən sürücülərə məsləhət görərdim ki, bu yollardan mümkün qədər istifadə etməsinlər. Şəxsi avtomobillərdən yox, ictimai nəqliyyatdan istifadə etsinlər. Amma bəzi küçələrdə sarı xətsiz də keçinmək olardı. Müşayiətlə də həmin nəqliyyat vasitələrinin hərəkətini asanlaşdırmaq olardı. Amma bizim də bir vətəndaş kimi borcumuz budur ki, bunu anlayışla qarşılayaq, yolumuzu buna uyğun planlaşdıraq".

**"Bakıda tez-tez idman yarışları keçirilir və artıq ikinci dəfədir ki, xüsusi hərəkət zolaqlarından istifadə edilir. Qarşıdan Formula 1 yarışları da gəlir. Sıxlığın yaşanmaması üçün alternativ yol varmı" sualına onun cavabı belə oldu:** "Bakının küçələri göz qabağındadır. Alternativ yol tapmaq çətindir. Amma yolları bağlamadan, xüsusi hərəkət zolaqları olmadan da keçinmək olardı. Dünya praktikasında bu var. Rusiyada, Böyük Britaniyada keçirilən olimpiadalar zamanı bunu gördük. Hansı ki, olimpiada İslam oyunlarından daha genişmiqyaslı yarışdır. Həmin yarışlarda hər şey nəzərə alınır. Xüsusi hərəkət zolaqları olsa belə, onun hüquqi əsasları müəyyən edilir. Bizdə isə bu bir az tələsik olub. Hesablamalar bütün detallarına qədər aparılmayıb. "Belə olsa yaxşı olar" deyib, qaydalar tərtib ediblər. Fikirləşilsə daha rahat üsullar tapmaq olar".

Xatırladaq ki, bu il mayın 12-22-də Bakıda IV İslam Həmrəyliyi Oyunları keçiriləcək. Bu oyunlara bütün İslam ölkələrindən 24 idman növü üzrə idmançılar qatılacaq.

❑ **Məhəmməd TÜRKMƏN**
❑ **Fotolar müəllifindir**

# Sovet maşınlarını yollardan yığışdıraqmı...

## Kasıb təbəqə "xarici maşını nə ilə alaq?" deyir, amma yollarda ölüm halları daha çox Rusiya istehsalı olan maşınlarda qeydə alınır...

**Azərbaycan avtomobil idxalında "Avro-4" standartının tətbiqinə başlayıb. Artıq ölkəyə yalnız "Avro-4" standartının tələblərinə cavab verə biləcək avtomobillər idxal olunacaq. Lakin bu da bir həqiqətdir ki, hazırda Azərbaycan avtomobil parkının mühüm hissəsi köhnə avtomobillərdən ibarətdir. Belə avtomobillərin yaratdığı fəsadlar barədə kifayət qədər deyilib, müzakirələr aparılıb.**

ARB TV-nin "Günə doğru" proqramında mövzu ilə bağlı maraqlı reportaj yayımlanıb.

Bir məsələ var ki, bölgələrdə xüsusilə kənd yerlərində Rusiya istehsalı olan köhnə avtomobillər əvəzolunmaz nəqliyyat növüdür. Çünki bu avtomobillərdən bəzən həm yük, həm də minik maşını kimi istifadə olunur. Onların dözümlülük göstəricisi isə digər xarici avtomobillərdən daha üstündür. Belə olduğu təqdirdə də qiymətindən asılı olmayaraq bəzən əksər sakinlər məhz Rusiya istehsalı olan avtomobillərə üstünlük verməli olurlar.



**Sürücü:** "Dağ rayonlarına xarici maşınlarla getmək qeyri-mümkündür. Yollar dağınıq, daşlıqdır. Xarici maşın daxil olan kimi çox hissələri dağılır".

Son zamanlar elə müşahidələr də göstərir ki, xüsusilə magistral yollarda artıq Rusiya istehsallı avtomobillər digər xarici avtomobillərə "uduzur". Ağır qəzaların da əksəriyyəti məhz bu avtomobillərdə qeydə alınır. Bu isə onu deməyə əsas verir ki, həqiqətən artıq Rusiya istehsalı olan köhnə avtomobillər beynəlxalq standartlara tam cavab verə bilmir.

**Sürücü:** "Yeni çıxan avtomobillər yaxşıdır. Sovet maşınlarının hamısı keyfiyyətsizdir. Allah eləməsin, qəza olan zaman, Avropa, yapon, Koreya maşınlarında təhlükəsiz yastıqları var. Ölüm halları çox azdır".

Ancaq bütün bunlarla yanaşı, Rusiya istehsallı avtomobilləri birdən-birə ləğv etmək olmaz. Bu avtomobillərin müəyyən qədər ucuz olması, onların ehtiyat hissələrinin hər yerdə satılması və bu maşınların kifayət qədər ustasının olması avtomobillərə meyli də artırır. Bu baxımdan, standartlara cavab verməyən maşınları aradan çıxartmaq üçün mütləq şəkildə həmin sürücüləri nəzərə almaq lazımdır. Çünki bölgələrdə digər xarici markalı avtomobillər o qədər də üstünlük təşkil etmir.

**Usta:** "İmkanı olmayan adamlar sovet maşını alır. Xarici maşının hansısa detalı xarab olanda, nə qədər vəsait lazımdır".

**Sürücü:** "Həm tez düzəlir, həm ehtiyat hissələri rahat tapılır, həm də ucuzdur. Ustalar da çörəkpulunu burdan aparırlar. "Ustalara da, bizə də sərf edir. Xarici maşını nə ilə alaq biz? O qədər qiyməti var".

Bu avtomobillərin ləğvi məsələsinə gəlincə isə hələlik bu sistemin tətbiqinə hazır olunmadığı aşkardır. Bütün prosedurlar həyata keçirildikdən sonra bu avtomobillərin utilizasiyası ilə məşğul olan zavod olmalıdır. Bu müəssisələri ya dövlət yaratmalı, ya da özəl quruma belə bir müəssisə yaratmaq üçün dəstək verilməlidir. Həmin zavodlarda avtomobillər müəyyən məbləğ qarşılığında zəruri detallara ayrılıb, təkrar emala göndərilir.

Məsələnin həlli istiqamətində ilk təşəbbüs Naxçıvanda həyata keçirilməkdədir. Belə ki, Naxçıvanda istehsal ili 1985-ci ilədək olan köhnə yük və minik avtomobillərinin əhalidən yığılmasına başlanılıb. Həmin avtomobillər əridilərək yenidən Naxçıvan Avtomobil Zavodunda ehtiyat hissələrinin hazırlanmasında istifadə olunacaq.

# Sumqayıtda su saygacları və liftin əyləc dolaqlarını oğurlayan şəxslər tutulub



**Əhalini su və enerji ilə təmin edən qurğuların və avadanlıqların sökülərək oğurlanması hallarının qarşısının alınması və bu cinayətləri törətmiş şəxslərin ifşa edilməsi istiqamətində daxili işlər orqanları tərəfindən Sumqayıt şəhərində növbəti uğurlu əməliyyat-axtarış tədbiri həyata keçirilib.**

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Sumqayıt Şəhər Polis İdarəsinin (ŞPİ) Cinayət Axtarış Şöbəsi (CAŞ) əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində şəhər ərazisindəki çoxmənzilli yaşayış binalarının girişindəki su sayğacını oğurlamağa cəhd göstərən Corat qəsəbə sakinləri - Sənan Süleymanlı, onun qardaşı Kənan və Faiq Bayramlı saxlanılıblar. Saxlanılan şəxslərin ətrafında aparılan tədbirlərlə onların bu ilin yanvar ayından aprel ayına qədər olan müddətdə şəhər ərazisində 50-yə yaxın mənzilin su sayğacını oğurlamaları da müəyyən edilib.

Qeyd edək ki, dəstə üzvləri təkcə bir gecədə şəhərin 13-cü mikrorayonu ərazisində yerləşən binalardan birinin 21 mənzilinin su sayğacını oğurlayıblar.

Saxlanılan şəxslər ifadələrində sayğacları oğurlayandan sonra onların mis və latundan olan hissələrini Sumqayıt şəhərinin müxtəlif yerlərində olan metal qəbulu məntəqələrinə satdıqlarını bildiriblər. Oğurlanan su sayğaclarının qırılmış hissələrinin bir qismi isə onların gizlətdikləri yerdən aşkar olunaraq götürülüb.

Əməliyyat tədbirinin davamı olaraq saxlanılan şəxslərin oğurluq yolla əldə etdikləri mis və latunu satdıqları metal qəbulu məntəqəsinin sahibi Sumqayıt şəhər sakini Əlisəfa Qurbanov da müəyyən edilərək izahatının alınması üçün polis idarəsinə gətirilib.

**Dəstə üzvlərinin ətrafında aparılan əlavə tədbirlər nəticəsində həmçinin onların Sumqayıtdakı yaşayış binalarında olan 70-ə qədər liftin əyləc dolaqlarını da oğurladıqları məlum olub. Saxlanılan şəxslər liftlərdəki oğurluq hadisələrini də əlvan metal əldə edib satmaq niyyəti ilə həyata keçirdiklərini etiraf ediblər.**


**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.


## AZAL futbol klubu fəaliyyətini dayandırdı

**Azərbaycan Premyer Liqasının 2016/2017-ci il mövsümündə sonuncu yeri tutaraq elitanı tərk edən AZAL Peşəkar Futbol Klubu fəaliyyətini dayandırıb. "Report"un məlumatına görə, paytaxt təmsilçisi bununla bağlı rəsmi saytı vasitəsilə bəyanat yayıb.**

Bəyanatda bildirilib ki, klub üçün Şüvəlan qəsəbəsində müasir təlim-məşq bazası və stadion tikilib, komandaya peşəkar məşqçi və texniki heyət cəlb olunub: "Buna baxmayaraq, son zamanlar ölkəmizdə futbolun sürətli inkişafı, komandalar arasında rəqabətin güclənməsi, AZAL Peşəkar Futbol Klubunda səmərəli idarəetmənin həyata keçirilməsi, o cümlədən kluba əlavə maliyyə mənbəyinin cəlb edilməsi zərurətini ortaya çıxarıb. Bu tələbləri nəzərə alaraq, klub rəhbərliyi tərəfindən sponsor və tərəfdaşlarla məsləhətləşmələr aparılıb və belə bir qərara gəlinib ki, AZAL QSÇ Bakı ətrafı qəsəblər üzrə daha güclü, peşəkar və rəqabət qabiliyyətli klub ilə təmsil olunmaq məqsədilə qısa vaxt ərzində böyük nailiyyətlərə imza atan "Zirə" Futbol Klubuna dəstək olmaq daha məqsədəuygundur.

AZAL Peşəkar Futbol Klubu fəaliyyətini dayandıraraq mövcud maddi-texniki təminatı və infrastrukturu ilə "Zirə" Futbol Klubuna dəstək olacaq".

Qeyd edək ki, AZAL klubu 2005-ci ildən fəaliyyət göstərirdi.



## Mingəçevirdə baş verən dəhşətli qətlin təfərrüatları

**Mingəçevir şəhərində arvadını amansızlıqla qətlə yetirən şəxs tutulub. APA-nın yerli bürosunun məlumatına görə, hadisə ötən gecə Mingəçevir şəhərinin Xətai küçəsindəki yaşayış binasında qeydə alınıb. Şəhər sakini Kənan Əzizov ailə münaqişəsi zamanı həyat yoldaşı Əzizova Günel Yusif qızını qətlə yetirib.**

Məlumata görə, iki uşaq anası Günel Əzizovanın bıçaqla boğazını kəsərək hadisə yerindən qaçan Kənan Əzizov polis əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində tapılaraq istintaqa təhvil verilib.

Mingəçevir şəhərində amansızlıqla törədilən qətl hadisəsinin bəzi təfərrüatları məlum olub. APA-nın yerli bürosunun xəbərinə görə, yas mərasimində mərhumun bacısı Gülşən bacısına həyat yoldaşı tərəfindən 25 bıçaq zərbəsi vurulduğunu deyib: "Kənan bacımın bədənini uşaqlarının gözü qarşısında bıçaqla deşik-deşik edib və sonra balta ilə başını kəsib".

O, hadisə zamanı bacısının baldızı və qayınanasının da evdə olduğunu bildirib. Onun sözlərinə görə, bacısının qayınanası Nailə Əzizova uzun illərdi ki, şəhərdə sələmçiliklə məşğul olur: "Qayınanası Güneli dəfələrlə ayrı-ayrı adamların evinə göndərərək onlara sələmlə verdiyi pulların faizini yığdırıb. Bacım isə həmişə qayınanasına və ərinə deyirdi ki, haram pul yeməkdən bezmişəm. Onların evində həmişə dava-dalaş olurdu. Öyrəndik ki, dünən bacım sələmlə verilən pulların faizinin yığılması üçün qayınanasının göndərişinə məhəl qoymayıb. Günel daha pul yığmaq üçün heç yerə getməyəcəyini deyib. Bu səbəbdən də onların evində söz-söhbət düşüb və bacım inadından dönmədiyi üçün onu öldürüblər. Mən dünən axşam bacımgilə hal-əhval tutmağa zəng etdim, eşitdim ki, əri, baldızı və qayınanası birlikdə bacımı öldürüblər".

Mərhumun anası Xumar xanım qətlin bir yox, 3 nəfər tərəfindən törədildiyinin təsdiqlənməsi üçün meyitin müayinə edilməsini istəyib.




## Bakıda məşhur şadlıq sarayından toy zamanı içi pulla dolu seyf oğurlandı

**Bakıda şadlıq evindən içi pulla dolu seyf oğurlanıb. Lent.az xəbər verir ki, srağagün gecə saatlarında Nizami rayonu, Mehdi Abbasov küçəsi 22 ünvanında yerləşən "Romance Palace" şadlıq sarayından içərisində 38200 manat və 300 ABŞ dolları pul olan seyf oğurlanıb. Nizami RPİ 25-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri Emil Teymurov və əvvəllər məhkum olunmuş Mirzə Mirzəzadə tutulublar.**

Bildirilir ki, hadisə şadlıq sarayında keçirilən toy mərasimi zamanı baş verib və seyfdəki pul toy sahibinə çatmalı imiş.







# Nübar meyvələrin qiymətində ucuzlaşma

## Hər bir məhsulu öz təbii yetişmə vaxtında yemək daha təhlükəsiz və faydalıdır

**Yaz fəslini yaşadığımız üçün insanın ağlına ilk olaraq təravətli yay fəslinə məxsus meyvələr gəlir. Hər birimiz qiyməti neçəyə olursa-olsun bu meyvələrdən vaxtından əvvəl alıb dadmaq istəyirik. Ancaq süni yolla yetişdirilən elə meyvə-tərəvəzlər var ki, onları yeməklə çox ciddi problemlərlə üzləşə bilərik.**

Apardığımız müşahidələr nübar meyvə və tərəvəzlərin qiymətində bir həftə öncəyə baxanda xeyli ucuzlaşma olduğunu göstərir. Bu cür nübar meyvə-tərəvəzlərin alıcıları əvvəl az idisə, indi çoxalıb. Ancaq unutmamalıyıq ki, bu cür süni yetişdirilən nübar meyvə və tərəvəzləri yemək səhhətimiz üçün zərərlidir. Hətta bəzən bu, ciddi zəhərlənmə ilə də müşahidə edilə bilir. Meyvələrlə yanaşı, bir sıra tərəvəzlər-badımcan, pomidor, xiyar və yaşıl lobya kimi məhsullar da paytaxt bazarlarının piştaxtalarını bəzəyir.

Maraqlıdır, bəs nübar meyvə-tərəvəz neçəyədir və onlar əslində nə vaxt yeyilməlidir?

İlk olaraq alçadan başlayaq. Hazırda alçanın kilosu 2 manat 50 qəpik-10 manat arasında dəyişir. Stəkanla da alça satılır ki, onun da qiyməti stəkanın ölçüsünə uyğun olaraq 20-40 qəpik arasındadır. Satıcılar kilosu 10 manata satılan alçanın Göyçə alçası olduğunu deyirlər. Göyçənin adi alçadan fərqi onun tam yetişənə qədər yaşıl rəngini qoruyub saxlamasıdır. Adətən alça tam yetişəndə qızarır. Ancaq Göyçə alçası belə olmur. Alça adətən may ayında yetişir və artıq may ayında bu meyvəni yemək tam zərərsizdir.

Ümumiyyətlə, alça bədənə güc və enerji verir. Qansızlığa yaxşı təsir edir, iştahanı açır, həzmi asanlaşdırır. Bədəndəki zərərli maddələri çölə atmaqda köməklik edir. Revmatizmə də yaxşı təsiri olduğu bildirilir. Alça A, C və B vitaminləri ilə kalium, maqnezium, fosfor və dəmirlə zəngindir.

Çiyələk də mayın sonlarında yetişir. Çiyələk siqaret tüstüsünün təsirlərini azalda bilir, yüksək atəşi salır. Şəkər nisbəti aşağı olan çiyələyin 10 dənəsi yalnız 58 kaloridir. Bununla yanaşı, çiyələk arıqlamaqda köməkçi olan hormonları da tənzimləyir. Çiyələk antioksidantdır və buna görə də immun sistemini gücləndirir. Hətta xərçəngə qarşı qoruyucu təsirinin olduğu da sübut edilmişdir.

Vitamin və mineralları: B3 və C vitamini, karbonhidrat, kalium, lif, dəmir.

Bazarlarda daha çox bu meyvələri görə bilərik. Ancaq bir sıra iri marketlərdə hazırda yetişmə mövsümü olmasa belə, ərik, üzüm kimi meyvələrə də rast gəlinir. Onların kiçik bağlaması 6 manatdan başlayır.

Tərəvəzlərə gəlincə isə hazırda marketlərdə və bazarlarda yer alan badımcanın kilosu 2 manat 50 qəpik-4 manat arasında dəyişir. İyun ayında yeyilməsi məsləhət görülən badımcan A vitamini, fosfor baxımından zəngindir. Qaraciyər və böyrəkləri qüvvətləndirir, bədəndəki çox suyu boşaldır. Qansızlığa yaxşı gəlir, qanı artırar və ürəyi sakitləşdirər. Kilosu 3-5 manat arasında satılan yaşıl lobyanı isə aprel-iyul aylarında yemək məsləhət görülür. Yaşıl lobya ürək və damarların fəaliyyətinə çox müsbət təsir edir, damarları təmizləyir, aterosklerozun inkişafının qarşısını alır. Kalsium və fosforla zəngin olan yaşıl lobya sümüklərimiz üçün də çox xeyirlidir. Fransızlar deyir ki, yaşıl lobyanı tez-tez yeyən qadın dəri, saçlar və dırnaqların vəziyyətinə görə narahat olmamalıdır, onlar hər zaman sağlam və gözəl olacaq. Lobya qidalı liflərlə zəngindir. Bu liflər bağırsaqları toksin, şlaklar və s. ziyanlı maddələrdən yaxşı təmizləyir, qəbizliyin qarşısını alır. Yaşıl lobyanın tərkibində həm fol turşusu, həm də dəmir var. Bu iki maddə qanın tərkibinə çox müsbət təsir edir. Bibərin kilosu 5 manat, badımcan, pomidor 2-5 manat arasında dəyişir.

Dolmalıq bibərin isə iyundan noyabra qədər yeyilməsi tövsiyə edilir. Kilosu 3-4 manatadır. Bazarda təzə üzüm yarpağı da satılır. Kilosu 2 manat 50 qəpik-5 manat arasında dəyişir.

Meyvələrə gəlincə isə mütəxəssislər meyvələrin aşağıdakı aylarda yeyilməsinin daha məqsədəuyğun və sağlamlıq üçün faydalı olacağını bildirirlər:

**Ərik:** iyun - avqust; üzüm: iyul - noyabr; armud: iyul - noyabr; alça: may - avqust; göyəm: avqust-oktyabr; şaftalı: iyun - sentyabr; albalı: iyun; vişnə: iyul-avqust; çiyələk: may - iyun; heyva: oktyabr - yanvar; qarpız: iyun - avqust; qovun: iyul -noyabr

**əncir:** avqust-sentyabr.

Ümumiyyətlə, hər bir meyvəni və tərəvəzi öz təbii yetişmə vaxtında yemək daha təhlükəsiz və faydalıdır.

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Gül bayramında iməcilik olacaq

## Hər rayon özünəməxsus formada abadlaşdırma və güləkmə işləri aparacaq





**Mərhum prezident Heydər Əliyevin doğum günü ilə bağlı hər ilin 10 may tarixində keçirilən Gül bayramı bu il də, ötən il olduğu kimi, fərqli formatda keçiriləcək.**

Belə ki, hələ bir neçə gün əvvəl Bakı meriyasından bildirilib ki, mayın 10-da Bakı şəhərinin bütün park, bağ və xiyabanlarında yaşıllaşdırma işləri və güləkmə mərasimi, abadlaşdırma iməcilikləri təşkil olunacaq: "Hər il mərhum prezident Heydər Əliyevin doğum günü münasibətilə təşkil edilən Gül bayramı geniş ictimaiyyətdə böyük maraq doğurub və bununla bağlı şəhər icra hakimiyyətinə çoxsaylı vətəndaş təşəbbüsləri daxil olub. Bakı Şəhər İcra Hakimiyyəti müraciət edən ayrı-ayrı təşkilatların, tədbirə müstəqil şəkildə qoşulmaq niyyətində olan ictimaiyyət nümayəndələrinin və vətəndaşların bu prosesdə daha fəal iştirakını təmin etmək məqsədilə Gül bayramının yeni formatda keçirilməsi barədə qərar qəbul edib. Şəhərin rayonlarının geniş ictimaiyyətinin və icra hakimiyyəti strukturlarının iştirak edəcəyi əmək və Gül bayramında hər rayon özünəməxsus formada abadlaşdırma və güləkmə işləri aparacaq".

İcra hakimiyyətindən məsələ ilə bağlı "Yeni Müsavat"a da bildirildi ki, Gül bayramı ilə bağlı qeyd olunan istiqamət üzrə hazırlıq işləri gedir. Lakin yuxarıda da qeyd olunduğu kimi, meriyadan bu il Gül bayramının ənənəvi qaydada keçirilməyəcəyini söylədilər.



Eyni zamanda müşahidə etdik ki, əvvəlki illərdə əgər aprel ayından etibarən Heydər Əliyev Sarayının qarşısındakı parkda müxtəlif dekorasiyalar qurulub, Bakı meri Hacıbala Abutalıbovun göstərişi ilə xarici ölkələrdən güllər gətirilirdisə, bu il həmin işlər də görülməyib. Parkın vəziyyəti adi günlərdə olduğu kimidir.

Onu da xatırladaq ki, 2016-cı ildə də Gül bayramı prezident İlham Əliyevin göstərişi ilə fərqli formatda keçirilmişdi. Belə ki, dövlət başçısı tədbirin keçiriləcəyi vaxtın aprel hadisələrində şəhid olan hərbiçilərimizin 40 mərasimi ilə eyni günə düşdüyünü nəzərə alaraq, bayramın ləğvi haqda göstəriş vermişdi.

Qeyd edək ki, Gül bayramı Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun təşəbbüsüdür.

**❑ Əli RAİS**

YENİ MÜSAVAT

Son səhifə

N 94 (6708) 4 may 2017

## Hər gün işlətdiyimiz əşyaları kimlər kəşf edib...

Əksəriyyət bu əşyaların tarixini tamam başqa cür bilir.

Məsələn, ilk qayçılar Qədim Romada tapılıb və quruluşu müasir qayçılardan çox fərqli olub. Ən birinci konfetlər Misirdə kəşf olunub və s.

Təəccüblü olan odur ki, məhz bu əşyaların yaranmasında hər kəsin tanıdığı məşhur simaların rolu olub.

Publika.az həmin məşhurları sizə təqdim edir:

**1. Salvador Dali** - çupa-çups sorma konfetlərin formasını onun bığları ilə əlaqələndirirlər. Deyilənə görə, əks halda, çupa-çupslar çubuqsuz yumuru konfekt formasında olacaqdı.

**2. Mark Tven** - yazıçılıq qədər sevdiyi ikinci iş xatirə kitabçası düzəltmək olub. O kiçik parçaları, yapışqan vasitəsilə dəftərə yapışdırıb toplayırdı. Bu ilk dəfə məhz Mark Tvenin adı ilə bağlı olub.

**3. Tomas Edison** - hazırda da istifadə olunan konfet kağızlarını ilk dəfə o düşünüb.

**4. Leonardo Da Vinçi** - dahinin yaşadığı illərə qədər qayçının tamamilə fərqli quruluşda olduğu deyilib. Müasir qayçının formasının məhz Da Vinçidən sonra dəyişildiyi deyilib.

**5. İsaak Nyuton** - dahinin sevimli ev pişiyi olub. Pişiyin hər dəfə evə girib-çıxması üçün qapını açan dahi bu vəziyyətən çıxış yolu tapıb. Gecələr küçəyə çıxan pişiyin evə rahat girə bilməsi üçün qapının aşağı hissəsində ev heyvanlarının rahat girib-çıxması üçün kiçik "pəncərə" açıb.

**6. Benjamin Franklin** - ABŞ-ın banilərindən hesab olunan Franklin evləri ildırım vurmasından müdafiə edən sipər kəşf edib. İldırım sipəri bir çox evləri dağıntı və yanğınlardan qorudu.

**7. Lyuis Keroll** - "Dubletlər" oyunu və "Skrabl" prototipi - hər kəsin oynadığı məşhur "söz nərdivanı" oyununu ilk dəfə Lyuis yaradıb.

# Jül Vernin zaman kapsulu tapıldı

**Jül Vernin zaman kapsulu (Gələcək nəsillərə göndərilən məktub. Adətən kapsulun içində mühafizə olunur, həmin kapsul tikilməkdə olan binanın və ya abidənin özülünə atılır- red.) tapılıb.**

Kulis.azın rus mətbuatına istinadən verdiyi xəbərə görə, fransız alimlərinin arxeoloji qazıntılar zamanı zaman kapsulu aşkar olunub.

Onlar iddia edir ki, bu kapsul böyük fransız yazıçısı Jül Vernə məxsusdur.

Pireney sıra dağlarında möhtəşəm kəşf ortaya çıxıb. Paris Descartes Universiteti, Amerikadakı "The Explorers Club"unda çalışan bir arxeoloq və tarixçi alim Pireney dağlarında araşdırmalara başlayıblar. Jül Vernin əsərlərini, məzarını incələyiblər və araşdırmaların sonunda ağlasığmaz kəşfə nail olublar. Nəticədə XIX əsrə aid metal qutu tapılıb.



# Qarşımızdakı inanmasa da, daim dediyimiz yalanlar

**Günümüzdə hər gün fərqli yalanlarla rastlaşırıq. Lent.az gündəlik ünsiyyətdə istifadə olunan, lakin qarşı tərəfin heç vaxt inanmadığı yalanları təqdim edir.**

- Tıxacdayam;
- Başım qarışıq idi - Beyin hətta yatanda da fəaliyyətsiz qalmır. Yəni baş əslində həmişə qarışıqdır. Sadəcə, baxır nəyə və kimə...
- Kitab oxumağa vaxtım yoxdur - guya 7/24 taleyüklü məsələlərlə məşğuldur. Hətta səngərdə də mütaliəyə vaxt tapmaq mümkündür;
- "Burdan keçirdim, dedim bir içəri baxım, görüm dost-tanışdan kim var" deyib, cavab gözləmədən əyləşirsən stola. Təki yeyib-içmək olsun...
- Elə mən də sənə zəng vurmaq istəyirdim;
- Telefonda nömrələr silinmişdi;
- Dünən desəydin, bir əlli manat borc verərdim;
- Heç vaxt yalan danışmamışam;
- Əsgərlikdə "şəpit"lə gəzirdim...
- Uşaq vaxtı çox kitab oxumuşam.





## Bu ölkədə 40 dəqiqədən bir qız qaçırırlar

**Qırğızıstanda hər 40 dəqiqədən bir qız qaçırılır.**

İstiPress-in rus mətbuatına istinadən xəbərinə görə, hazırda dünyanın 17 ölkəsində qız qaçırmaq ənənəsi mövcuddur ki, bunun da əsas payı Mərkəzi Asiyanın payına düşür.

Qırğızıstan hüquq müdafiəçisi Aygül Alimqulova deyir ki, bu işdə çoxlu sayda adamın iştirakı təəccüblüdür. Ən dəhşətlisi odur ki, dindarlar da bu işə göz yumur və bu azmış kimi, gənclərə xeyir-dua verirlər.

Qırğızların el deyimlərindən biri budur ki, ərə getdinsə geriyə yol yoxdur, dözüb yaşamalısan, istər ərin çirkin, istərsə də Kinq-Konqdur.

Ədliyyə və hüquqi instansiyalar bəzən qaçırılma barədə düzgün olmayan rəy çıxardır ki, bu da valideynlərin narazılığı ilə müşayiət olunur.

## Qoroskop




**QOÇ** - Ailə üzvlərinizlə, eləcə də digər yaxınlarınızla mübahisələriniz gözlənilir. Bu səbəbdən də çılğın olmayın. Hər bir anlaşılmazlığı dözüm və səbrlə yoluna qoyun. Yeməyinizə də fikir verin.

**BUĞA** - Gün ərzində hər şey çıxardığınız qərarlardan asılı olacaq. Xüsusən də iş prinsipində kənar mövqeləri mütləq nəzərə almalısınız. Günün ikinci yarısında sənədləşdirmə işlərində yanlışlığa yol verməyin.

**ƏKİZLƏR** - Ailə üzvlərinizə qarşı qayğıkeş və mərhəmətli olun. Əgər onların arasında xəstə olanı varsa, hamıdan çox siz ürək yandırın. Axşama yaxın büdcənizin artacağı da gözlənilir. Bədxərclik etməyin.

**XƏRÇƏNG** - Ayın əvvəlindən reallaşdıra bilmədiyiniz planlara görə məyusluq keçirməkdənsə, əzmkarlığınızı artırın ki, boşluqlar aradan qalxsın. Ən azından bu gün mütləq həyatınızda yenilik olmalıdır.

**ŞİR** - Hiss olunur ki, dünəndən bəri səhhətinizlə bağlı yüngül problem yaranıb. Odur ki, özünüzü qoruyun. İndi sizə qapalı yerdə çox oturmaq olmaz. Yeni işlə bağlı məramlarınızı mümkün qədər təxirə salın.

**QIZ** - Daxili orqanlarınıza diqqəti artırın. Əgər mədənizlə bağlı sancmalarınız varsa, həkimə müraciət edin. Fiziki rahatlığınızı təmin etmək üçün daha çox yataqda uzanmalısınız. Qalan şeylər düzələr.

**TƏRƏZİ** - Yaxşı olar ki, bütün planlarınızı saat 16-ya qədər başa çatdırasınız. Əks təqdirdə, sonrakı vaxt düşərli olmayacaq. Ulduzlar deyir ki, içinizdəki şübhələrdən qurtulmayınca, xilasınız çətin olacaq.

**ƏQRƏB** - Daxili narahatlığınız günün ikinci yarısından etibarən aradan qalxacaq. Amma bu təqvimdə fiziki işləri kifayət qədər azaltmağınız məsləhətdir. Əks təqdirdə, səhhətiniz pisləşəcək. Kalorili qidalara üstünlük verin.

**OXATAN** - Bəri başdan əmin ola bilərsiniz ki, bu gün ulduzlar maddi rifah halınızı yüksəldəcək. Bu istiqamətdə bütün mümkün variantlardan yararlanmalısınız. Uzaq səfərlərə isə çıxmağa tələsməyin.

**OĞLAQ** - Ətraf mühitin sərtliyinə qarşı acizlik nümayiş etdirməyin. Ən azı ona görə ki, bu hal sizdə bədbinlik yarada bilər. Fəallığınızı artırın. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**SUTÖKƏN** - Sizə elə gəlməsin ki, ünsiyyətdə olduğunuz adamların hamısından ağıllısınız. Bu təkəbbür sizi gözdən sala bilər. Gün ərzində daha sadə, daha mülayim olun. Əcnəbilərlə işbirliyinə getməyin.

**BALIQLAR** - Yeni görüşləriniz məqsədlərinizə yaxınlaşmaqda sizə yardımçı olacaq. Qarşı tərəfin ədalətli təkliflərini qəbul etməyə hazır olun. Bu gün yalan danışmaq və ya vəd vermək sizə əziyyət verə bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 2 quyruqlu buzov - biri belindədir

**İnək 2 quyruqlu bala doğub. Qeyri-adi hadisə Qaxda təsərrüfatların birində baş verib.**



ARB Şəki xəbər verir ki, 9 ay öncə süni mayalanma ilə doğulan inək balasının bel hissəsində ikinci quyruğu var.

9 ay öncə dünyaya gələn qara rəngli buzov anormal olaraq 2 quyruqlu doğulsa da, bu günə kimi inkişafdan qalmayıb. Yəni digər inək balaları kimi böyüyüb. Ancaq ikinci çıxan quyruq o qədər də uzanmayıb. Ən maraqlısı isə ikinci quyruğun inək balasının bel hissəsində olmasıdır.

Təsərrüfat sahibləri bu vaxta kimi belə bir hadisəyə şahidlik etmədiklərini söyləyir. Daha əvvəl bu cinsdən doğulan buzovların hamısı normal olub.

Qeyd edək ki, bu cür qeyri-adi hadisələr regionlarda çox baş verir.

**Səhifəni hazırladı: GÜLTƏK**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.